RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 148 (9315) 18 İYUL 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin şərtləri sülhün yeganə təminatıdır

Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi uzaqgörən siyasət artıq beynəlxalq aləmdə, o cümlədən də Ermənistan tərəfindən qəbul edilir.

Altıncı Brüssel görüşündən sonra mətbuata açıqlama verən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel bəyan etdi ki, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası ilə bağlı danışıqlarda aşkar irəliləyiş əldə ediblər. Görüşdə suverenlik, yurisdiksiya prinsiplərinə hörmətlə yanaşılaraq gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə ediblər: "Biz Ermənistan ilə Azərbaycan arasında danışıqların ən əhatəli və mürəkkəb mərhələlərindən birini keçirik. Mən liderləri sülh prosesinə güclü sadiqliklərinə görə təqdir etdim. Mən onları normallaşma yolunda qəti və dönməz irəliləyişi təmin etmək üçün daha cəsarətli addımlar atmağa çağırdım. Baxmayaraq ki, görüşümüz gərginliyin artması fonunda baş tutdu, mən siyasi müzakirələrdə və səylərdə mühüm irəliləyiş olduğunu qeyd etdim".

Gündəlikdə olan bütün məsələləri müzakirə edən Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla bir-birilərinin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqləyiblər. Hər iki lider delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə birmənalı sadiqliklərini bəyan edib.

8

## Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycan-Türkiyə əməkdaşlığı genişlənir

### Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Fuat Oktay qəbula görə təşəkkürünü bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında əlaqələrin çox böyük məmnunluq doğurduğunu vurğulayan Fuat Oktay münasibətlərimizin "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf etdiyini dedi. O, Şuşa Bəyannaməsi ilə rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə münasibətlərinin həmin sənəddən irəli gələn məqsəd və məramlar əsasında daha da inkişaf etdirilməsinin önəmini vurğuladı. Ölkəsində baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycanın Türkiyənin yanında olmasının önəmini qeyd edən TBMM-in komitə sədri bu dəstəyə görə təşəkkürünü ifadə etdi.

İqtisadi-ticari əlaqələrin genişlənməsindən məmnunluğunu bildirən Fuat Oktay ölkələrimizin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığının genişlənməsi istiqamətində səyləri yüksək qiymətləndirdi.

O, eyni zamanda Ermənistanda Nemesis terrorçularına abidənin qoyulması ilə əlaqədar Türkiyənin də ciddi narahatlığını bir daha diqqətə çatdırdı.

Fuat Oktay həmçinin ölkələrimiz arasında enerji, təhsil, hərbi, hərbi-texniki, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərini qeyd etdi.

Türkiyədəki seçkilərdən sonra Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfərinin önəmini yüksək qiymətləndirən Prezident İlham Əliyev bu səfər əsnasında da ikitərəfli əlaqələrin inkişafı ilə bağlı geniş müzakirələrin aparıldığını vurğuladı.

Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlığın inkişafına toxunan dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıda olarkən Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirakının ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişafının növbəti nümunəsi olduğunu bildirdi. Şuşa Bəyannaməsi ilə müttəfiqlik prinsipi əsasında ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, həmçinin bu əməkdaşlığın parlament səviyyəsində daha da inkişaf etdirilməsinin, parlamentlərin xarici əlaqələr komitələrinin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı öz növbəsində Ermənistandakı Nemesis abidəsinin qoyulmasının qəbuledilməz hal olduğunu bir daha qeyd etdi.

Görüşdə həmçinin Orta dəhliz, enerji sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı, son dövrlərdə Türkiyə ilə Azərbaycan arasında Preferensial Ticarət Sazişindən irəli gələrək iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi və ticarət dövriyyəsinin 6 milyard dollara çatması müsbət məqamlar kimi qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Böyük qayıdışın köçü də böyük olur

Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma və bərpa işlərinin sürəti imkan verir deyək ki, işğaldan azad olunan digər ərazilərə də tezliklə köç başlayacaq. Laçın rayonunun inzibati ərazisinə daxil olan Zabux və Sus kəndləri artıq öz sakinlərini qəbul etməyə hazırlaşır. Azərbaycan hökuməti qarşıdakı qısa zamanlarda həmin kəndlərin sakinlərinin öz dədə-baba torpaqlarına qovuşması üçün hər cür şərait yaratmağa çalışır. Nəzərdə tutulur ki, ilin sonuna kimi Zabux və Susda 296 ailə məskunlaşsın.

Daha sonra isə Ağdamın 3 kəndinə, eləcə də Hadrut qəsəbəsinə və Tuğa köçün reallaşacağı planlaşdırılır.

Böyük qayıdışın köçü də böyük olur. Bu köç yurd yerlərinə qayıdışın təkcə 30 illik həsrətinə, nisgilinə son qoymur, həm də illərin mənəvi-psixoloji sarsıntısını yox edir, insanları mənəvi əzab-əziyyətdən qurtarır.

10

## Prezident İlham Əliyev Ukrayna xalqına növbəti humanitar yardım göstərilməsi barədə sərəncam imzaladı



### Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası humanizm prinsiplərinə söykənərək ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardımlar göstərir.

Ukraynada yaranmış son vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına da bir neçə dəfə humanitar yardım göndərilmişdir.

Azərbaycan Respublikası ilə Ukrayna arasında münasibətlər dostluq və tərəfdaşlıq zəminində müvafiq ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə", 2008-ci il 22 may tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2022-ci il 14 yanvar tarixli "Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi" əsasında inkişaf edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə elektrik avadanlığının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 7,6 milyon (yeddi milyon altı yüz min) ABŞ dollarının manat ekvivalentində vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

## Ermənistan ətraf mühitlə bağlı tərəfdar çıxdığı beynəlxalq konvensiyalara əməl etmir

Ermənistanın münbit torpaqlara, su hövzələrinə, atmosferə, meşə fonduna, flora və faunaya, mineral sərvətlərə və enerji mənbələrinə vurmuş olduğu zərər təkcə ölkəmizdə deyil, bütövlükdə regionda ekoloji tarazlığın pozulması ilə nəticələnib. Bütün bunlar Ermənistanın ekoloji cinayətlər törətməsini, ekologiya və ətraf mühitlə bağlı qoşulduğu beynəlxalq konvensiyalarla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsini bir daha sübut edir.

8

## Rusiyanın iddiaları əsassızdır

Rusiya Xarici İşlər Nazirliyinin iyulun 15-də üçtərəfli Bəyanatı və sülh prosesini şərh edən bəyanatında bölgədə, guya, gərgin humanitar vəziyyətin davam etdiyi qeyd olunub.

Azərbaycan Xarici İşlər Nazirliyinin cavabında Rusiyanın iddialarının əsassız olduğu bildirilib, bölgədə Rusiya sülhməramlı kontingentinin müşahidəsi altında erməni silahlı qüvvələrinə dəstək verildiyi bir daha diqqətə çatdırılıb.

9

## Rusiya taxıl sazişindən yenə çıxmaq istəyir

### Dünyanın nəzərləri yenidən Türkiyəyə dikilib

9

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində,"Torpaq islahatı haqqında", "Energetika haqqında","Torpaq icarəsi haqqında","Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında","Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında","Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci və13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12(I kitab), maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; 2019, № 1, maddə 34, № 3, maddə 392, № 6, maddə 987; 2020, № 5, maddələr 512, 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1423; 2021, № 7, maddə 701, № 8, maddə 894; 2023, № 1, maddə 3; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 807-VIQD və 24 fevral tarixli 826-VIQD nömrəli qanunları) 56-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin dördüncü cümləsinə "verilməsi" sözündən sonra ", "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələri ərazisinin əhatə etdiyi torpaq sahəsinin dövlət mülkiyyətinə və ya icarəsinə, elektrik enerjisi istehsalçısının icarəsinə verilməsi" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 11-ci hissə əlavə edilsin:

"11. Torpaq sahəsinin bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı məqsədləri üçün əldə edilməsinin xüsusiyyətləri "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.".

**Maddə 2.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 5, maddə 755, № 6, maddələr 1019, 1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850, № 12(I kitab), maddə 2535; 2019, № 1, maddə 23, № 3, maddələr 375, 391, № 6, maddə 987; 2020, № 5, maddə 522, № 7, maddələr 832, 843, № 11, maddə 1326; 2021, № 12, maddə 1315; 2022, № 3, maddə 194, № 7, maddələr 692, 696; 2023, № 2, maddə 184; Azərbaycan Respublikasının 2023-cü il 17fevral tarixli 807-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 75.5-1-ci maddə əlavə edilsin:

"75.5-1. Bu Məcəllənin 75.5.1-ci maddəsində göstərilən rəyin verilməsi ilə bağlı tələblər bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş torpaq sahəsində inşa ediləcək elektrik stansiyasının tikinti layihəsinə şamil edilmir və tikintiyə icazə icraatı məqsədləri üçün həmin tikinti layihəsi şəhərsalma sənədlərinə uyğun hesab edilir.".

**Maddə 3.** "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 203; 2001, № 1, maddə 26, № 3, maddə 149, № 6, maddə 375; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 14; 2004, № 2, maddə 59, № 4, maddə 212; 2006, № 6, maddə 478; 2007, № 1, maddə 3; 2008, № 3, maddə 154, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2015, № 3, maddə 246, № 10, maddələr 1092, 1097; 2018, № 5, maddə 889; 2020, № 7, maddə 826, № 12 (I kitab), maddə1423) 19-cu maddəsinin ikinci hissəsinin ikinci cümləsinə "verilməsi" sözündən sonra ", "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələri ərazisinin əhatə etdiyi torpaq sahəsinin dövlət mülkiyyətinə və ya icarəsinə, elektrik enerjisi istehsalçısının icarəsinə verilməsi" sözləri əlavə edilsin.

**Maddə 4.** "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 53; 2006,№ 8, maddə 657; 2018, № 3, maddə 378;2019, №11, maddə 1689; 2021, № 7, maddə 701; 2022, № 7, maddə 696) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci maddənin birinci hissəsinin onuncu abzasında"(günəş, külək, yerin istilik axınları, biokütlə, dəniz, su axınları və s.)" sözləri "(hidroenerji, külək enerjisi, günəş enerjisi, geotermal enerji, biokütlə enerjisi, dəniz və okeanlarda dalğa enerjisi, qabarma və çəkilmə enerjisi, su axınlarının enerjisi və s.)" sözləri ilə əvəz edilsin;

4.2. 13-cü maddəyə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Bərpa olunan enerji mənbələri ərazilərində elektrik enerjisinin istehsalı ilə əlaqədar müqavilələr "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılır və həyata keçirilir.".

**Maddə 5.** "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 154; 2001, № 3, maddə 149; 2002, № 5, maddə 241, № 12, maddə 706; 2003, № 1, maddə 14; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 503; 2015, № 3, maddə 247; 2018, №6, maddə 1183; 2019, № 1, maddə 34, № 7, maddə 1178; 2020, № 5, maddə 509; 2022, № 12, maddə 1365; 2023, № 2, maddə 187; Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 827-VIQD nömrəli Qanunu)10-cu maddəsinin birinci hissəsinin ikinci cümləsinə "verilməsi" sözündən sonra ", "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələri ərazisinin əhatə etdiyi torpaq sahəsinin dövlət icarəsinə və ya elektrik enerjisi istehsalçısının icarəsinə verilməsi" sözləri əlavə edilsin.

**Maddə 6.** "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 157; 2006, № 6, maddə 478; 2007, № 10, maddə 938; 2018, № 7 (I kitab), maddə 1387; 2020, № 8, maddə 1016; 2023, № 1, maddə 5) 11-ci maddəsinin birinci hissəsinin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının bərpa olunan enerji mənbələrinin potensialı atlasının formalaşdırılması və aktuallığının təmin olunmasında.".

**Maddə 7.** "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390; 2002, № 5, maddə 241; 2003, № 1, maddələr 11, 13; 2006, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 1, maddə 3, № 6, maddə 571; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 504; 2014, № 3, maddə 235; 2015, № 3, maddə 245, № 10, maddə 1096; 2018, № 11, maddə 2206; 2020, № 7, maddə 827, № 12 (I kitab), maddə 1423; 2021, № 7, maddə 719; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 816-VIQD nömrəli Qanunu) 8-ci maddəsinin birinci hissəsinin ikinci cümləsinə "verilməsi" sözündən sonra ", "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələri ərazisinin əhatə etdiyi torpaq sahəsinin dövlət mülkiyyətinə və ya icarəsinə, elektrik enerjisi istehsalçısının icarəsinə verilməsi" sözləri əlavə edilsin.

**Maddə 8.** "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 520; 2004, № 5, maddə 314; 2005, № 2, maddə 62; 2006, № 6, maddə 486, № 8, maddə 657, № 11, maddə 923; 2007, № 11, maddə 1082; 2008, № 5, maddə 348, № 6, maddə 462, № 11, maddə 959, № 12, maddə 1048; 2011, № 12, maddə 1077; 2012, № 6, maddə 507; 2014, № 10, maddə 1170; 2015, № 2, maddə 85, № 10, maddə 1091; 2018, № 1, maddə 29; 2020, № 7, maddə 850, № 12 (I kitab), maddə 1423; 2021, № 1, maddə 8)9.1-ci maddəsinə ikinci halda"verilməsi" sözündən sonra ", "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələri ərazisinin əhatə etdiyi torpaq sahəsinin dövlət mülkiyyətinə və ya icarəsinə, elektrik enerjisi istehsalçısının icarəsinə verilməsi" sözləri əlavə edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 216; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 212, № 5, maddə 314; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 11, maddə 923; 2008, № 12, maddə 1048; 2014,№ 3, maddə 234; 2015, № 3, maddə 248, № 10, maddə 1095;2020, № 7, maddə829) ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 10-cu maddəyə ikinci halda"verilməsi" sözündən sonra ", "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələri ərazisinin əhatə etdiyi torpaq sahəsinin dövlət mülkiyyətinə və ya icarəsinə, elektrik enerjisi istehsalçısının icarəsinə verilməsi" sözləri əlavə edilsin;

9.2. aşağıdakı məzmunda 10-1-ci maddə əlavə edilsin:

"10-1. Bərpa olunan enerji mənbələrinin ərazisinin əhatə etdiyi torpaq sahəsi üzərində hüquqların əldə edilməsinin xüsusiyyətləri "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.".

**Maddə 10.** "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 702) 8.7-ci maddəsinin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Torpaq sahəsinin icarəyə götürülməsi ilə bağlı müqavilə dövlət mülkiyyətində olan, habelə bu məqsədlər üçün dövlət tərəfindən icarəyə götürülmüş torpaqlara münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla), digər hallarda torpaq sahəsinin mülkiyyətçisi ilə bağlanılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

---

## "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 895-VIQD nömrəli Qanununun tətbiqi və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 895-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 8.7-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8.7-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 895-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 721) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "8.6-cı" sözlərindən sonra "maddələrində, 8.7-ci maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

3.2. 2.5-ci bəndə "8.4.1-ci" sözlərindən sonra "maddələrində, 8.7-ci maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

---

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711, № 8, maddə 894, № 11, maddə 1206, № 12, maddə 1335; 2022, № 6, maddə 580, № 8, maddələr 824, 828, 833; 2023, № 1, maddələr 7, 22, № 3, maddə 333, № 4, maddə 445; Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 867-VIQD nömrəli Qanunu) 41.2-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə şəxsin hərbi əməliyyatlarda həlak olduğunu güman etməyə əsas verən halları nəzərə alaraq, onu bu müddət bitməzdən əvvəl, lakin hərbi əməliyyatların qurtardığı gündən altı aydan tez olmayaraq ölmüş elan edə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2023-cü il*

---

## "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779; 2016, № 1, maddə 21, № 2 (I kitab), maddə 206, № 6, maddə 972; 2017, № 3, maddə 340; 2019, № 5, maddə 802; 2021, № 10, maddə 1091; 2022, № 1, maddə 8, № 12, maddə 1402; 2023, № 1, maddələr 27, 30, 34) 20.0.21-ci maddəsindən "minaaxtaran itlərin," sözləri çıxarılsın və həmin maddədə "idxalı - 2021-ci il oktyabrın 15-dən" sözləri ", onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı - 2023-cü il martın 1-dən" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyun 2023-cü il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293,№ 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466; AzərbaycanRespublikasının 2023-cü il 2 may tarixli 868-VIQD nömrəli və 30 may tarixli 890-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 27.3-cü maddəyə "333," rəqəmlərindən sonra "333-1," rəqəmləri əlavə edilsin və həmin maddədə "və 343-cü" sözləri ", 343 və 343-1-ci" sözləri ilə əvəz edilsin.

2. 43.1-ci maddəyə "333," rəqəmlərindən sonra "333-1," rəqəmləri, "334," rəqəmlərindən sonra "334-1," rəqəmləri, "338.7," rəqəmlərindən sonra "338.10," rəqəmləri əlavə edilsinvə həmin maddədə "343" rəqəmləri "343.1 - 343.7, 343.9, 343-1.1 - 343-1.9, 343-1.11" rəqəmləri ilə əvəz edilsin.

3. 96.1.4-cü maddədə və 315.3-cü maddənin dispozisiyasında" göstərən" sözü "edən" sözü ilə əvəz edilsin.

4. 327-ci maddə üzrə:

4.1. 327.2-ci maddənin sanksiyasında "altmış" sözü "səksən" sözü ilə əvəz edilsin;

4.2. 327.3-cü maddənin dispozisiyasına "pozulmasına" sözündən sonra "və ya nəqliyyat vasitələrinin dəmir yollarını dəmiryol keçidlərindən kənar yerlərdən keçməsinə" sözləri əlavə edilsin və həmin maddənin sanksiyasında "səksən" sözü "yüz" sözü ilə əvəz edilsin;

4.3. 327.4-cü maddənin sanksiyasına "yüz" sözündən sonra "əlli" sözüəlavə edilsin;

4.4. 327.7-ci maddənin dispozisiyasına"333.1," rəqəmlərindən sonra "333-1.1," rəqəmləri və "343.1" rəqəmlərindən sonra ", 343-1.1" rəqəmləri əlavə edilsin;

4.5. 327.8-ci maddənin sanksiyasında "iki" sözü "üç" sözü ilə əvəz edilsin və həmin maddənin sanksiyasına "idarə etmək hüququ" sözlərindən sonra "altıaydan" sözləri əlavə edilsin;

4.6. "Qeyd" hissəsinin5-ci bəndində "və ya 343.1-ci" sözləri", 333-1.1, 343.1 və ya 343-1.1-ci" sözləri ilə əvəz edilsin.

5. 328-ci maddə üzrə:

5.1. 328.3-cü maddənin sanksiyasında "yüz əlli" sözləri "iki yüz" sözləri ilə əvəz edilsin;

5.2. 328.4-cü maddənin sanksiyasında "iki yüz əlli" sözləri "üç yüz" sözləri ilə əvəz edilsin.

6. 332-ci maddə üzrə:

6.1. 332.3-cü maddənin sanksiyasında "iki" sözü "üç" sözü ilə əvəz edilsin;

6.2. 332.4-cü maddənin sanksiyasında "dörd" sözü "beş" sözü ilə əvəz edilsin.

7. 333-cü maddə üzrə:

7.1. adında və 333.1-ci maddənin dispozisiyasında "vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən" sözləri "vasitəsinin alkoqoldan" sözləri ilə əvəz edilsin;

7.2. 333.2-ci maddənin sanksiyasında "dörd yüz manatdan beş yüz manatadək məbləğdə" sözləri "beş yüz manat məbləğində" sözləri ilə əvəz edilsin və həmin maddənin sanksiyasına "on beş günədək" sözlərindən sonra "müddətə" sözü əlavə edilsin;

7.3. 333.4-cü maddənin dispozisiyasına "nəqliyyat vasitəsinin" sözlərindən sonra "alkoqoldan istifadə olunması nəticəsində" sözləri əlavə edilsin;

7.4. "Qeyd" hissəsi üzrə:

7.4.1. 1-ci bənddə "və yaxud narkotik vasitələrin, psixotrop və digər güclü təsir edən maddələrin qəbulunu göstərdiyi halda şəxsin" sözləri "göstərdiyi halda şəxsin alkoqoldan istifadə olunması nəticəsində" sözləri ilə əvəz edilsin;

7.4.2. 2-ci bəndə "şəxsin" sözündən sonra "alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində yaranmış" sözləri əlavə edilsin.

8. Aşağıdakı məzmunda 333-1-ci maddə əlavə edilsin:

**"Maddə 333-1. Nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsinin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi**

333-1.1. Nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsinin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə -

altı yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılır.

333-1.2. Bu Məcəllənin 333-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla səkkiz yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

333-1.3. Bu Məcəllənin 333-1.1-ci maddəsində nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla doqquz yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

333-1.4. Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən belə nəqliyyat vasitəsinin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə sərnişin daşımaqla idarə edilməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

333-1.5. Bu Məcəllənin 333-1.4-cü maddəsində nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:** Xüsusi texniki vasitə narkotik vasitələrin, psixotrop maddələrin və ya güclü təsir edən digər maddələrin qəbulunu göstərdiyi halda şəxsin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoşluq vəziyyətində olduğu hesab edilir.".

9. 334-cü maddə üzrə:

9.1. adında və 334.1-ci maddənin dispozisiyasında "vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən" sözləri "vasitəsinin alkoqoldan" sözləri ilə əvəz edilsin;

9.2. 334.4-cü maddənin dispozisiyasına "nəqliyyat vasitəsinin" sözlərindən sonra "alkoqoldan istifadə olunması nəticəsində" sözləri əlavə edilsin.

10. Aşağıdakı məzmunda 334-1-ci maddə əlavə edilsin:

**"Maddə 334-1. Nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsinin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi**

334-1.1. Nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsinin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə -

səkkiz yüz manat məbləğində cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

334-1.2. Bu Məcəllənin 334-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

334-1.3. Bu Məcəllənin 334-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın törədilməsi və yol hərəkəti qaydalarının pozulması nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə -

min manat məbləğində cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

334-1.4. Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən belə nəqliyyat vasitəsinin narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə sərnişin daşımaqla idarə edilməsinə görə -

bir aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

334-1.5. Bu Məcəllənin 334-1.4-cü maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə, yaxud həmin xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə -

iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.".

11. 338-ci maddə üzrə:

11.1. 338.6-cı maddə ləğv edilsin;

11.2. 338.7-ci maddənin dispozisiyasında "338.4-338.6-cı" sözləri "338.4 və 338.5-ci" sözləri ilə vəhəmin maddənin sanksiyasında "səksən manatdan yüz" sözləri "yüz manatdan yüz əlli" sözləri iləəvəz edilsin;

11.3. aşağıdakı məzmunda 338.8 - 338.10-cu maddələr əlavə edilsin:

"338.8. Bu Məcəllənin 338.4 və 338.5-ci maddələrində nəzərdə tutulmuş xətaların yol hərəkəti iştirakçıları tərəfindən alkoqoldan istifadə olunması nəticəsində sərxoş vəziyyətdə törədilməsinə görə -

yüz əlli manat məbləğində cərimə edilir.

338.9. Bu Məcəllənin 338.4 və 338.5-ci maddələrində nəzərdə tutulmuş xətaların yol hərəkəti iştirakçıları tərəfindən narkotik vasitələr, psixotrop maddələr və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə törədilməsinə görə -

iki yüz manat məbləğində cərimə edilir.

338.10. Bu Məcəllənin 338.8 və 338.9-cu maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə-

iki yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.".

12. 342-ci maddə üzrə:

12.1. 342.1.3-cü maddəyə "olmamasına" sözündən sonra "və ya mövcud standartlara uyğun olmayan dövlət qeydiyyat nişanları ilə nəqliyyat vasitəsinin idarə edilməsinə" sözləri əlavə edilsin;

12.2. 342.7-ci maddənin dispozisiyasından "və ya mövcud standartlara uyğun olmayan" sözləri çıxarılsın və həmin maddənin sanksiyasında "altmış" sözü "yüz" sözü ilə əvəz edilsin.

13. 343-cü maddə üzrə:

13.1. adında "Sərxoşluq" sözü "Alkoqoldan istifadə olunması nəticəsində yaranmış sərxoşluq" sözləri ilə əvəz edilsin;

13.2. aşağıdakı məzmunda 343.1-1-ci maddə əlavə edilsin:

"343.1-1. Bu Məcəllənin 343.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla beş yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək müddətə inzibati həbs tətbiq olunur.";

13.3. 343.2-ci maddənin sanksiyasında "dörd" sözü "beş" sözü ilə əvəz edilsin;

13.4.aşağıdakı məzmunda 343.4-1-ci, 343.8-ci və 343.9-cu maddələr əlavə edilsin:

"343.4-1. Bu Məcəllənin 343.4-cü maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.";

"343.8. Bu Məcəllənin 338.8-ci maddəsində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış yol hərəkəti iştirakçısının tibbi müayinədən imtina etməsinə görə -

yüz əlli manat məbləğində cərimə edilir.

343.9. Bu Məcəllənin 338.10-cu maddəsində nəzərdə tutulmuş hallarda alkoqoldan istifadə olunması nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış yol hərəkəti iştirakçısının tibbi müayinədən imtina etməsinə görə -

iki yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.".

14. Aşağıdakı məzmunda 343-1-ci maddə əlavə edilsin:

**"Maddə 343-1. Narkotik vasitələr, psixotrop maddələr və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinədən imtina**

343-1.1. Bu Məcəllənin 333-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxsin tibbi müayinədən imtina etməsinə görə-

altı yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmə hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılır.

343-1.2. Bu Məcəllənin 343-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla səkkiz yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.3. Bu Məcəllənin 333-1.2 və 333-1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxsin tibbi müayinədən imtina etməsinə görə-

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla səkkiz yüz manatdan doqquz yüz manatadək məbləğdə cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.4. Bu Məcəllənin 333-1.4 və 333-1.5-ci maddələrində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxsin tibbi müayinədən imtina etməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.5. Bu Məcəllənin 334-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin tibbi müayinədən imtina etməsinə görə -

səkkiz yüz manat məbləğində cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.6. Bu Məcəllənin 343-1.5-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.7. Bu Məcəllənin 334-1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin tibbi müayinədən imtina etməsinə görə -

bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.8. Bu Məcəllənin 334-1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin tibbi müayinədən imtina etməsinə görə-

min manat məbləğində cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.9. Bu Məcəllənin 334-1.4 və 334-1.5-ci maddələrində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin tibbi müayinədən imtina etməsinə görə-

iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

343-1.10. Bu Məcəllənin 338.9-cu maddəsində nəzərdə tutulmuş hallarda sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış yol hərəkəti iştirakçısının tibbi müayinədən imtina etməsinə görə -

iki yüz manat məbləğində cərimə edilir.

343-1.11. Bu Məcəllənin 338.10-cu maddəsində nəzərdə tutulmuş hallarda narkotik vasitələr, psixotrop maddələr və ya güclü təsir edən digər maddələrdən istifadə olunması nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün tibbi müayinəyə aparılmış yol hərəkəti iştirakçısının tibbi müayinədən imtina etməsinə görə -

iki yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.".

15. 351-ci maddənin sanksiyasında "yüz manatdan yüz əlli" sözləri "beş yüz manatdan səkkiz yüz" sözləri ilə və "min manatdan min iki yüz" sözləri "iki min manatdan üç min" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyun 2023-cü il*

---

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 925-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 925-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli Fərmanı) 5.1-ci bəndinə "333.1," rəqəmlərindən sonra "333-1.1," rəqəmləri, "334.1," rəqəmlərindən sonra "334-1.1," rəqəmləri, "343.4," rəqəmlərindən sonra "343.8, 343-1.1, 343-1.5, 343-1.10," rəqəmləri əlavə olunsun və həmin bənddə "338.6" rəqəmləri "338.5, 338.8, 338.9" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97, № 2, maddə 226, № 3, maddə 375, № 4, maddələr 472, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2149 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci və 2.2-ci bəndlərə "333.1," rəqəmlərindən sonra "333-1.1," rəqəmləri, "334.1," rəqəmlərindən sonra "334-1.1," rəqəmləri, "343.4," rəqəmlərindən sonra "343.8, 343-1.1, 343-1.5, 343-1.10," rəqəmləri əlavə olunsun və həmin bəndlərdə "338.6" rəqəmləri "338.5, 338.8, 338.9" rəqəmləri ilə əvəz edilsin;

2.2. 2.4-cü bənddə "338.6" rəqəmləri "338.5" rəqəmləri ilə əvəz edilsin;

2.3. 13-1-ci hissədə ikinci halda "13-1" rəqəmləri "13-1.1" rəqəmləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 25-ci hissəsinə "333.2 - 333.5," rəqəmlərindən sonra "333-1.2 - 333-1.5," rəqəmləri, "334.2 - 334.5," rəqəmlərindən sonra "334-1.2 - 334-1.5," rəqəmləri, "338.7," rəqəmlərindən sonra "338.10," rəqəmləri, "342.9," rəqəmlərindən sonra "343.1-1," rəqəmləri, "343.3," rəqəmlərindən sonra "343.4-1," rəqəmləri, "343.5 - 343.7," rəqəmlərindən sonra "343.9, 343-1.2 - 343-1.4, 343-1.6 - 343-1.9, 343-1.11," rəqəmləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 925-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

## "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224; 1999, № 8, maddə 476; 2001, № 11, maddələr 673, 696, № 12, maddə 736; 2004, № 7, maddə 505; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2016, № 1, maddə 22; 2018, № 5, maddə 849; 2019, № 1, maddə 20, № 11, maddə 1689; 2020, № 7, maddə 842; 2021, № 7, maddə 701, № 12, maddə 1315; 2022, № 8, maddə 833) aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü maddənin ikinci hissəsinin birinci cümləsində "müsabiqə, hərrac" sözləri "hərrac (auksion və ya müsabiqə)" sözləri ilə əvəz edilsin.

2. 15-ci maddənin birinci hissəsi üzrə:

2.1. ikinci abzasda "müsabiqədə və ya hərracda" sözləri "hərracda (auksionda və ya müsabiqədə)" sözləri ilə əvəz edilsin və həmin abzasdan "həmin müsabiqədə və ya" sözləri çıxarılsın;

2.2. üçüncü abzasda "müsabiqə, yaxud hərrac" sözləri "hərrac (auksion və ya müsabiqə)" sözləri ilə əvəz edilsin;

2.3. dördüncü abzasda "müsabiqə və hərracların" sözləri "hərracların (auksion və ya müsabiqənin)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 2018-ci il 16 iyul tarixli 205 nömrəli, "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2019-cu il 9 aprel tarixli 613 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 27 mart tarixli 975 nömrəli fərmanlarında və "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 351 nömrəli, "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 16 mart tarixli 1941 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 899-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 205 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1491; 2021, № 5, maddə 456; 2022, № 8, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddə "müsabiqə və hərracların" sözləri "hərracların (auksion və ya müsabiqənin)" sözləri ilə əvəz edilsin;

1.2. 5.6-cı bənddə "müsabiqə və hərraca" sözləri "hərraca (auksiona və ya müsabiqəyə)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613; 2020, № 7, maddə 898; 2021, № 7, maddə 729) ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bəndin birinci cümləsində "müsabiqə və hərracların" sözləri "hərracların (auksion və ya müsabiqənin)" sözləri ilə əvəz edilsin;

2.2. 3.1.9-cu yarımbənddə "müsabiqə və hərraca" sözləri "hərraca (auksiona və ya müsabiqəyə)" sözləri ilə, "müsabiqə və hərracları" sözləri "hərracları (auksion və ya müsabiqəni)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251; 2022, № 8, maddələr 874, 885) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3.0.55-ci yarımbəndində "müsabiqə və hərracların" sözləri "hərracların (auksion və ya müsabiqənin)" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 351 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 190; 2001, № 10, maddə 640; 2003, № 9, maddə 512; 2008, № 9, maddə 798; 2009, № 5, maddə 319, № 7, maddə 579; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2021, № 7, maddə 766; 2022, № 12, maddə 1512) ilə təsdiq edilmiş "Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu haqqında Əsasnamə"nin 2.1-ci bəndinin üçüncü abzasında "müsabiqə və hərracların" sözləri "hərracların (auksion və ya müsabiqənin)" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 323; 2021, № 11, maddə 1235; 2022, № 5, maddə 485) ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın 8.6.4-cü yarımbəndinin "Tədbirin adı" sütununda "müsabiqə və hərraca" sözləri "hərraca (auksiona və ya müsabiqəyə)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203; 2022, № 6, maddə 582, № 11, maddələr 1239, 1240, № 12, maddə 1392; 2023, № 1, maddə 14, № 2, maddə 207, № 3, maddə 338) 64-cü maddəsinin 1-ci hissəsinə "keçirilməsini" sözündən sonra "və attestasiyanın aparılması nəticələrinə dair sənədlərin surətinin 10 iş günü müddətində məlumat üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim olunmasını" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyun 2023-cü il*

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 924-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 924-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 64-cü maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 64-cü maddəsinin 1-ci hissəsində "orqan (qurum)" dedikdə Dövlət Əmək Müfəttişliyi Xidməti qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 924-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3 (I kitab), maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050; 2018, № 10, maddə 2007, № 12 (I kitab), maddə 2615; 2019, № 2, maddə 206, № 5, maddə 844; 2020, № 8, maddə 1037, № 11, maddə 1348; 2022, № 6, maddə 596, № 8, maddə 863, № 11, maddə 1270; 2023, № 3, maddə 352) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa "74-cü" sözlərindən əvvəl "64-cü maddəsinin 1-ci hissəsində," sözləri əlavə edilsin;

3.2. iyirmi üçüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda iyirmi dördüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin 64-cü maddəsinin 1-ci hissəsində "orqan (qurum)" dedikdə Dövlət Əmək Müfəttişliyi Xidməti qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832, № 12, maddələr 1376, 1385, 1400; 2023, № 1, maddələr 1, 10, 14, 23, 36, № 2, maddə 158, № 3, maddə 336, № 4, maddələr 445, 467) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 164.1.41-3-cü maddə əlavə edilsin:

"164.1.41-3. Azərbaycan Respublikasının ərazisində istehsal olunan minik avtomobillərinin satışı - 2023-cü il mayın 1-dən 10 il müddətinə;".

2. 164.1.56-cı maddədən "minaaxtaran itlərin," sözləri çıxarılsın və həmin maddədə "idxalı - 2021-ci il oktyabrın 15-dən" sözləri ", onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı - 2023-cü il martın 1-dən" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 164.1.56-1-ci maddə əlavə edilsin:

"164.1.56-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, partlayıcı və pirotexniki vasitələrin istehsalı və satışı - 2023-cü il martın 1-dən 5 il müddətinə;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyun 2023-cü il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 922-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 922-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.56-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 164.1.56-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 922-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585, № 12, maddələr 1398, 1425; 2022, № 1, maddə 22, № 12, maddə 1456; 2023, № 2, maddə 235, № 4, maddə 469) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "164.1.56-cı" sözlərindən sonra ", 164.1.56-1-ci" sözləri əlavə edilsin;

3.2. 1.49-cu bənddə "maddəsində" sözü "və 164.1.56-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

## "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 3.5-ci bəndində nəzərdə tutulan hesabat formasını on beş gün müddətində təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həlli etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

---

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında" 2023-cü il aprelin 29-da Samsun şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*

---

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7 (I kitab), maddə 1492; 2019, № 3, maddə 414, № 7, maddə 1247, № 10, maddələr 1580, 1592; 2020, № 2, maddə 109, № 5, maddə 556, № 6, maddə 700; 2021, № 3, maddə 229; 2022, № 1, maddə 24, № 3, maddə 223, № 10, maddə 1145, № 12, maddə 1416) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə"də dəyişikliklər təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

---

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365, № 6, maddə 637; 2015, № 3, maddə 272; 2018, № 5, maddə 899; 2020, № 9, maddə 1149; 2021, № 6 (I kitab), maddə 588, № 8, maddə 926; 2022, № 8, maddə 859) ilə təsdiq edilmiş Əlavə 1 - "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.12-1-ci və 3.0.12-2-ci yarımbəndlər əlavə edilsin:

"3.0.12-1. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, torpaq sahələrinin (su obyektlərinin) bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə əsaslandırılmış təkliflər verir, bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş torpaq sahəsi (su obyekti) üzərində hüquqların ötürülməsi ilə bağlı müvafiq tədbirlər görür;

3.0.12-2. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsini həyata keçirir, bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin mənbəyinə dair sertifikat verir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

---

## C.Ə.Feyziyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Cavanşir Əyyub oğlu Feyziyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

## Ə.M.Abıyevin Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Əhəd Mikayıl oğlu Abıyev Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

---

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 27 dekabr tarixli 852 nömrəli və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" 2021-ci il 2 fevral tarixli 2469 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 838; 2007, № 8, maddə 769; 2013, № 11, maddə 1449; 2014, № 5, maddə 477; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2020, № 9, maddə 1185; 2022, № 12, maddə 1512; 2023, № 3, maddə 391) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından, preambulasının birinci abzasının birinci cümləsindən, ikinci abzasının birinci və üçüncü cümlələrindən və 1-ci hissəsindən "alternativ və" sözləri çıxarılsın;

1.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" üzrə:

1.2.1. adından "alternativ və" sözləri çıxarılsın;

1.2.2. "Giriş" hissəsinin birinci və altıncı abzaslarının birinci cümlələrində "alternativ (bərpa olunan)" sözləri "bərpa olunan" sözləri ilə, üçüncü abzasının üçüncü cümləsində, dördüncü abzasının ikinci cümləsində, altıncı abzasının üçüncü cümləsində "alternativ" sözü "bərpa olunan" sözləri ilə əvəz edilsin;

1.2.3. "1. Dövlət proqramının məqsədi və əsas vəzifələri" hissəsinin üçüncü abzasında "alternativ (bərpa olunan)" sözləri "bərpa olunan" sözləri ilə, altıncı abzasında "alternativ" sözü "bərpa olunan" sözləri ilə əvəz edilsin;

1.2.4. "2. Azərbaycanda alternativ (bərpa olunan) enerji potensialı" hissəsinin adında və 2.5-ci bəndinin üçüncü abzasında "alternativ (bərpa olunan)" sözləri "bərpa olunan" sözləri ilə, 2.1-ci bəndinin birinci abzasında "alternativ" sözü "bərpa olunan" sözləri ilə əvəz edilsin;

1.2.5. "Alternativ (bərpa olunan) enerji mənbələrindən istifadə edilməsi üzrə Tədbirlər" hissəsinin adında və 2 - 4-cü bəndlərində "Alternativ (bərpa olunan)" sözləri "Bərpa olunan" sözləri ilə, 6-cı bəndində "alternativ" sözü "bərpa olunan" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2701; 2021, № 6 (I kitab), maddə 606; 2022, № 5, maddə 532, № 8, maddə 912; 2023, № 3, maddə 390, № 4, maddə 534) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 7.2.7.3-cü yarımbəndinin "Tədbirin adı" sütununda "alternativ" sözü "bərpa olunan" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 135; 2022, № 7, maddə 791) ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in 5.2-ci bəndinin birinci abzasının birinci cümləsindən və ikinci abzasının ikinci cümləsindən "alternativ və" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

---

***Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 22-ci maddəsinə əsasən hazırlanmışdır və enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində (bundan sonra - müvafiq sahə) dövlət nəzarətinin (bundan sonra - nəzarət) həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Müvafiq sahədə nəzarətin məqsədi Qanunun və müvafiq sahə üzrə digər normativ hüquqi aktların tələblərinə əməl olunmasını, pozuntuların qarşısının alınmasını və yol verilmiş pozuntuların vaxtında aşkar edilərək aradan qaldırılmasını, habelə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.2-ci və 3.2-ci bəndlərində nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etməkdən ibarətdir.

1.3. Müvafiq sahədə nəzarət Azərbaycan Respublikasının Energetika Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən həyata keçirilir.

1.4. Müvafiq sahədə nəzarət enerjinin istehsalı, saxlanması, ötürülməsi, nəqli, paylanması, satışı və istehlakı üzrə bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş nəzarət istiqamətlərinin şamil edildiyi mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq təsərrüfat subyektlərinə və qeyri-yaşayış binalarının mülkiyyətçilərinə (idarəçilərinə) münasibətdə (bundan sonra - nəzarət subyektləri) həyata keçirilir.

1.5. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

**2. Müvafiq sahədə nəzarətin həyata keçirilməsi qaydası**

2.1. Müvafiq sahədə nəzarət aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

2.1.1. Qanunun 6.3-cü maddəsinə uyğun olaraq, məcburi enerji auditinin keçirilməsi;

2.1.2. Qanunun 7.2-ci maddəsinə uyğun olaraq, enerji menecmenti sisteminə dair tələblərə əməl edilməsi;

2.1.3. Qanunun 8.1-ci maddəsinə uyğun olaraq, nəzarət subyektləri tərəfindən enerji idarəçilərinin (menecerlərin) təyin olunması;

2.1.4. Qanunun 11-ci maddəsinə uyğun olaraq, istehlak olunan enerjinin hesablanması;

2.1.5. Qanunun 12-ci maddəsinə uyğun olaraq, məlumatların istehlakçılara çatdırılması və qorunması;

2.1.6. Qanunun 13.3-cü maddəsinə uyğun olaraq, enerji effektivliyi potensialının qiymətləndirilmə nəticələri nəzərə alınmaqla, enerji istehsalçıları üçün enerji resurslarından səmərəli istifadəyə dair müəyyən edilmiş öhdəliklərin icrası.

2.2. Nəzarət subyektləri Nazirlik nümayəndələrinin bu Qaydanın 2.3-cü və 3.3-cü bəndlərində nəzərdə tutulmuş tədbirləri həyata keçirmələri üçün şərait yaratmalıdırlar.

2.3. Nazirliyin bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan istiqamətlər üzrə yoxlamalar keçirmək, nəzarət subyektindən sənədlərin surətini (elektron sənədin nüsxəsini) tələb etmək, nəzarət istiqaməti ilə bağlı digər dövlət orqanlarından (qurumlarından) məlumat əldə etmək, nəzarət tədbirlərinin həyata keçirilməsinə mane olan halların aradan qaldırılmasını tələb etmək hüququ vardır.

2.4. Qanunun 18.1.3-cü maddəsinə uyğun olaraq istehlakçıları enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi, habelə məhsulların enerji səmərəliliyi ilə bağlı zəruri məlumatlarla təmin etmək məqsədilə Nazirlik enerji resurslarından istifadə və istehlak olunmuş enerjiyə dair məlumatların, o cümlədən müvafiq sahə ilə bağlı görülmüş tədbirlərə dair sənədlərin"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi nəzərə alınmaqla saxlanılmasını təmin edir.

2.5. Nazirlik nümayəndələrinin müvafiq sahədə fəaliyyətin həyata keçirildiyi yerlərə gəlməklə apardığı yoxlamalar təsərrüfat subyektlərinə münasibətdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa, qeyri-yaşayış binalarının mülkiyyətçilərinə (idarəçilərinə) münasibətdə isə Nazirliyin hər il ən geci dekabrın 1-dək təsdiq etdiyi və 1 (bir) iş günü müddətində rəsmi internet səhifəsində yerləşdirdiyi tədbirlər planına uyğun olaraq həyata keçirilir.

2.6. Tədbirlər planında aşağıdakı məlumatlar göstərilir:

2.6.1. növbəti il üçün yoxlama keçiriləcək nəzarət istiqamətləri;

2.6.2. yoxlama keçiriləcək nəzarət subyektlərinin adları və ünvanları (hüquqi ünvanları);

2.6.3. nəzarət subyekti barəsində yoxlamanın keçirilməsinin başlanma və bitmə tarixi.

2.7. Tədbirlər planı üzrə yoxlamalar 3 (üç) ildə bir dəfə həyata keçirilir. Yoxlama başlandığı tarixdən etibarən 10 (on) iş günündən artıq davam edə bilməz.

**3. Müvafiq sahədə həyata keçirilən monitorinqin xüsusiyyətləri**

3.1. Bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan istiqamətlər üzrə həyata keçirilən tədbirlərə dair məlumatların sistemli toplanılması, düzgünlüyünün yoxlanılması və qiymətləndirilməsi, habelə normativ hüquqi aktların tələblərinə əməl edilməsi vəziyyətinin öyrənilməsi, görülmüş işlərin və əldə olunmuş nəticələrin təhlili məqsədilə Nazirlik tərəfindən monitorinqlər həyata keçirilir.

3.2. Müvafiq sahədə monitorinqlər kameral qaydada nəzarət subyektlərinin təqdim etdikləri sənədlər və məlumatlar əsasında keçirilir.

3.3. Müvafiq sahədə monitorinqlər aşağıdakı üsullarla həyata keçirilir:

3.3.1. nəzarət subyektinin təqdim etdiyi hesabatların və enerji resurslarından səmərəli istifadəyə dair öhdəliklərin icra vəziyyətinin müəyyən olunması üçün əldə edilmiş məlumatların düzgünlüyünün müqayisəli araşdırılması və təhlili;

3.3.2. müvafiq sahədə statistik məlumatların, müraciətlərin vəmediada yayılmış məlumatların toplanılması;

3.3.3.aidiyyəti dövlət orqanları (qurumları) və müvafiq sahə mütəxəssisləri ilə müzakirələrin təşkili.

3.4. Nazirlik bu Qaydanın 3.1-ci bəndinə uyğun olaraq aparılan monitorinqlərin yekununda nəzarət subyektləri barəsində aşağıdakı tədbirləri görür:

3.4.1. müvafiq sahə üzrə tövsiyələr verir;

3.4.2. müvafiq sahə üzrə metodiki kömək göstərir, izahlar verir;

3.4.3. illik monitorinq tədbirlərinin nəticələrini ictimaiyyətə açıqlayır;

3.4.4. icrası məcburi olan göstərişlər verir;

3.4.5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun tədbirlər görür.

3.5. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi barədə forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən hesabatı aşağıdakı nəzarət subyektləri hər hesabat ili üçün növbəti il yanvarın 31-dək yazılı və ya elektron qaydada Nazirliyə təqdim edirlər:

3.5.1 enerjinin istehsalı, saxlanması, ötürülməsi, nəqli, paylanması və satışı sahəsində fəaliyyət göstərən subyektlər;

3.5.2. Qanunun 6.3-cü maddəsinə uyğun olaraq enerji menecmenti sistemi tətbiq edən məcburi enerji auditi subyektləri;

3.5.3. Qanunun 8.1-ci maddəsinə uyğun olaraq enerji idarəçisi (meneceri) təyin etmək öhdəliyi olan nəzarət subyektləri.

3.6. Enerji auditinin nəticəsinə dair hesabatın təqdim edilməsi Qanunun 6.14-cü maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**4. Nəzarət tədbirlərinin nəticələrinin rəsmiləşdirilməsi**

4.1. Təsərrüfat subyektlərinə münasibətdə nəzarət tədbirlərinin nəticələri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada rəsmiləşdirilir.

4.2. Bu Qaydanın 2.5-ci bəndində nəzərdə tutulmuş digər nəzarət subyektlərinə münasibətdə nəzarət tədbirlərinin nəticələri aktla rəsmiləşdirilir. Aktda aşağıdakı məlumatlar göstərilir:

4.2.1. aktın tərtib edildiyi tarix, yer və nömrəsi;

4.2.2. aktı tərtib edən şəxslərin hər birinin vəzifəsi, soyadı, adı və atasının adı;

4.2.3. bu Qaydanın 2.6.1 - 2.6.3-cü yarımbəndlərində qeyd edilən məlumatlar;

4.2.4. nəzarət tədbirləri həyata keçirilən zaman aşkar olunmuş pozuntuların məzmunu və tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri;

4.2.5. bu Qaydanın 3.4-cü bəndində göstərilən tədbirlərin görüləcəyi barədə məlumatlar;

4.2.6.akta əlavə edilən sənədlərin siyahısı (olduğu halda).

4.3. Nəzarət tədbirlərinin nəticələri barədə akt, həmin tədbirlərin bitmə tarixindən gec olmayaraq, Nazirlik tərəfindən 2 (iki) nüsxədə tərtib edilməli və 1 (bir) nüsxəsi tərtib edildiyi tarixdən 2 (iki) iş günü müddətində barəsində akt tərtib edilmiş nəzarət subyektinə təqdim olunmalı və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilməlidir.

4.4. Həyata keçirilmiş nəzarət tədbirləri və əldə edilmiş məlumatlar üzrə Nazirlik tərəfindən enerji effektivliyi sahəsində hazırlanmış illik hesabat Nazirliyin rəsmi internet informasiya ehtiyatında, habelə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər mənbələrdə açıqlanır.

4.5. Nəzarət tədbirlərinin nəticələri üzrə Nazirliyin qərarlarından inzibati qaydada və məhkəməyə şikayət edilə bilər.

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136, № 12, maddə 1438; 2023, № 1, maddə 89, № 2, maddə 245, № 3, maddə 359, № 4, maddə 474; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 iyun tarixli 2176 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü hissənin "Göstərdiyi xidmətlər" sütununa aşağıdakı məzmunda 18-ci bənd əlavə edilsin:

"18. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 50.1-ci, 50.2.1-ci və 50.5-ci maddələrində qeyd olunan lisenziyaların verilməsi ilə bağlı keçirilən müsabiqənin nəticələrinə görə qalib elan edilən yerüstü yayımçı, peyk yayımı həyata keçirən platforma yayımçısı və multipleks operatoru ilə müqavilə bağlanılması".

2. Aşağıdakı məzmunda 32-ci və 33-cü hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 32. | Azərbaycan Respublikasının Audiovizual Şurası | 1. audiovizual media subyektinin redaksiyasının loqotipinin (embleminin) dəyişdirilməsinə razılıq verilməsi |
| | | 2. audiovizual media fəaliyyəti üzrə lisenziyanın, onun dublikatının verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ləğvi |
| | | 3. yerüstü yayımçının proqramlarında dövlət dilindən başqa digər dillərdən istifadə edilməsinə razılıq verilməsi |
| | | 4. audiovizual media subyektinin iştirakçılarının tərkibində edilən dəyişikliyin "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olması barədə əsaslandırılmış rəyin verilməsi |
| | | 5. xarici audiovizual yayımçının proqramlarının Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin xidmətlərindən istifadə etməklə yayımlanmasına razılıq verilməsi |
| 33. | Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi | 1. Media Reyestrinə daxil edilmiş çap mediasının və onlayn medianın redaksiyasının loqotipinin (embleminin) dəyişdirilməsinə razılıq verilməsi |
| | | 2. çap mediası və ya onlayn media subyektlərinin, informasiya agentliklərinin Media Reyestrinə daxil edilməsi ilə bağlı müraciətin qəbulu |
| | | 3. Media Reyestrinə daxil edilmiş media subyektinə Media Reyestri şəhadətnaməsinin verilməsi |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

# "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiqi və "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1654 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiqi və "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1654 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanında(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 721; 2023, № 2, maddə 252; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 iyun tarixli 2177 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissəyə "dekabrın 31-dək" sözlərindən sonra ", 62-106-cı hissələri 2031-ci ilin yanvarın 1-dək" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 4-1-ci hissəəlavə edilsin:

"4-1. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş siyahının 62-106-cı hissələrində nəzərdə tutulan "minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənedilən texnoloji əməliyyatların məcmusu başa düşülür.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"na aşağıdakı məzmunda 62-106-cıhissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 62 | 4011 10 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən yeni pnevmatik rezin şinlər |
| 63 | 4013 10 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən rezin kameralar |
| 64 | 7007 11 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən yerüstü nəqliyyat vasitələrində istifadəyə imkan verən ölçüdə və formatda möhkəmləndirilmiş (bərkidilmiş) təhlükəsiz şüşə |
| 65 | 7007 21 200 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən yerüstü nəqliyyat vasitələrində istifadəyə imkan verən ölçüdə və formatda çoxqatlı təhlükəsiz şüşə |
| 66 | 7009 10 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən nəqliyyat vasitələrinin arxa görünüş güzgüləri |
| 67 | 8301 20 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən mühərrikli nəqliyyat vasitələrində nəzərdə tutulmuş qıfıllar |
| 68 | 8302 30 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən bərkidici armatur, furnitur və mühərrikli nəqliyyat vasitələrinin digər analoji detalları |
| 69 | 8407 34 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən mühərrik silindrlərinin işçi həcmi1000 $sm^3$-dən çox olan dövrü və ya irəli-geri hərəkət edən porşenli, qığılcımla alışan daxiliyanma mühərrikləri |
| 70 | 8413 30 200 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən daxiliyanma mühərriklərinin yanacaq nasosları |
| 71 | 8413 30 800 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən daxiliyanma mühərriklərinin yağları və ya soyuducu mayeləri üçün nasoslar |
| 72 | 8415 20 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən mühərrikli nəqliyyat vasitələrində insanlar üçün istifadə olunan havanın kondisiyalaşdırılması qurğuları |
| 73 | 8421 23 000 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən daxili yanma mühərriklərində yağın və ya yanacağın filtrlənməsi üçün qurğular və avadanlıq |
| 74 | 8481 20 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən yağ-hidravlik güc transmissiyalarının tənzimləyici klapanları |
| 75 | 8507 10 200 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən qurğuşunlu, porşenli mühərriklərin işə salınmasında istifadə edilən elektrik akkumulyatorları, onlar üçün düzbucaqlı (o cümlədən kvadrat) və ya digər formada separatorlar daxil olmaqla |
| 76 | 8511 10 000 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən alışdırma şamları |
| 77 | 8511 30 000 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən paylayıcılar, alışdırma makaraları |
| 78 | 8511 40 000 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən starterlər və starter-generatorlar |
| 79 | 8512 20 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən digər işıqlandırma və ya vizual siqnalizasiya cihazları |
| 80 | 8512 30 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən mühərrikli nəqliyyat vasitələrində istifadə olunan mühafizə üçün səsli siqnalizasiya cihazları |
| 81 | 8512 30 900 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən digər səsli siqnalizasiya cihazları |
| 82 | 8512 40 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən şüşətəmizləyicilər, buzlanma və tərləmə əleyhinə cihazlar |
| 83 | 8517 71 150 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən portativ aparatlar və ya mühərrikli nəqliyyat vasitələrində quraşdırılan aparatların teleskopik və milşəkilli antenaları |
| 84 | 8526 92 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən uzaqdan idarəetmə radio cihazlar |
| 85 | 8531 80 950 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən digər qurğular |
| 86 | 8539 21 300 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən volfram telli halogen |
| 87 | 8539 29 300 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən digər közərmə lampaları |
| 88 | 8544 30 000 2 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən alışdırma şamlarının naqil komplektləri və digər naqil dəstləri |
| 89 | 8707 10 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən kuzovlar (kabinlər daxil olmaqla) |
| 90 | 8708 10 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən bamperlər və onların hissələri |
| 91 | 8708 21 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən təhlükəsizlik kəmərləri |
| 92 | 8708 29 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən digər kuzov (kabinlər daxil olmaqla) hissələri və ləvazimatları |
| 93 | 8708 30 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən əyləclər, servogücləndiricili əyləclər, onların hissələri |
| 94 | 8708 40 200 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən ötürücü qutular və onların hissələri |
| 95 | 8708 50 200 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən transmissiyanın başqa elementləri ilə yığılmış və ya ayrı olan diferensiallı aparıcı körpülər və aparıcı olmayan körpülər, onların hissələri |
| 96 | 8708 70 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən hərəkət təkərləri, onların hissələri və ləvazimatları |
| 97 | 8708 80 200 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən asma sistemləri və onların hissələri (amortizatorlar daxil olmaqla) |
| 98 | 8708 91 200 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən radiatorlar və onların hissələri |
| 99 | 8708 92 200 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən səsboğucular və tullantı boruları, onların hissələri |
| 100 | 8708 93 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən yığılmış şəkildə ilişmələr və onların hissələri |
| 101 | 8708 94 200 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən sükan çarxları, sükan sütunları və sükan mexanizmlərinin karterləri, onların hissələri |
| 102 | 8708 95 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən üfürülmə sistemli təhlükəsizlik pnevmoyastıqları, onların hissələri |
| 103 | 8708 99 100 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən nəqliyyat vasitələrinin digər hissələri və ləvazimatları |
| 104 | 9029 20 310 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən spidometrlər və taxometrlər |
| 105 | 9401 20 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən mühərrikli nəqliyyat vasitələrində istifadə olunan oturacaqlar |
| 106 | 9603 50 000 1 | Minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən nəqliyyat vasitələrinin hissələri olan digər fırçalar |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2023-cü il*

# Pul siyasətinin əməliyyat çərçivəsində müəyyən dəyişikliklər edilib

**Pul siyasətinin transmissiyasında faiz kanalının rolunun yüksəldilməsi istiqamətində islahatlar davam etdirilir. Bununla bağlı pul siyasətinin əməliyyat çərçivəsində müəyyən dəyişikliklər edilib.**

Mərkəzi Bankdan AZƏRTAC-a bildirilib ki, pul təklifinin daha effektiv tənzimlənməsi, bank sistemində likvidliyin təmərküzləşməsinin daha da məhdudlaşdırılması və de-dollarlaşma meyillərinin dəstəklənməsi üçün məcburi ehtiyat normalarının diferensiallaşdırılması qaydasına yenidən baxılması zərurəti yaranmışdır. Qeyd edək ki, öncədən planlaşdırıldığı kimi, likvidliyin təmərküzləşməsinin məhdudlaşdırılması məqsədilə məcburi ehtiyatların diferensiallaşması dərəcəsinin yüksəldilməsi bank sektorunda sistem risklərinə yol verməmək üçün tədricən həyata keçirilir. Bu məqsədlə aparılmış təhlillər göstərmişdir ki, məcburi ehtiyat normalarının hüquqi şəxslərin depozitlərinin məbləğindən asılı olaraq diferensial tətbiqi likvidliyin təmərküzləşməsini azaltmağa və əlavə vəsaitin sterilizasiyasına imkan yaradır. Təhlillərin nəticələri əsasında qərara alınmışdır ki, milli valyutada hüquqi şəxslərin depozitlərinin məbləğinin bir milyard manatı, xarici valyutada hüquqi şəxslərin depozitlərinin məbləğinin isə yeddi yüz əlli milyon manat ekvivalentini üstələyən banklar üzrə məcburi ehtiyat normaları bütün öhdəliklər üzrə müvafiq olaraq 10 faiz və 12 faiz səviyyəsində müəyyən olunsun. Milli valyutada hüquqi şəxslərin depozitlərinin məbləği bir milyard manatdan, xarici valyutada hüquqi şəxslərin depozitlərinin məbləği yeddi yüz əlli milyon manat ekvivalentindən az olan banklar üzrə isə məcburi ehtiyat normaları bütün öhdəliklər üzrə müvafiq olaraq 5 faiz və 6 faiz səviyyəsində saxlanılmışdır. Qeyri-rezident maliyyə sektoru qarşısında öhdəliklər və beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə məcburi ehtiyat normaları dəyişməz olaraq sıfır səviyyəsində qalmışdır. Qərara alınmışdır ki, 2023-cü ilin iyul ayından başlayaraq bütün banklar məcburi ehtiyatları yeni normalara uyğun hesablamalı və növbəti saxlama dövründən (2023-cü ilin 15 avqust tarixindən) başlayaraq məcburi ehtiyatları yeni normalara uyğun saxlamalıdırlar. "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişikliklər və yeni məcburi ehtiyat normaları barədə banklar müvafiq qaydada məlumatlandırılıb. Mərkəzi Bankın qiymətləndirmələrinə görə, məcburi ehtiyatların diferensiallaşma qaydasına və normalarına edilən son dəyişikliklər bank sektoru üzrə öhdəliklərin maya dəyərinə cəmisi 0,03-04 faiz intervalında artırıcı təsir göstərir.

Faiz dəhlizinin maliyyə sektorunda digər faizlərə təsirlərini gücləndirmək üçün sterilizasiyayönümlü daimi imkan aləti üzrə günlük limitin avqustun 15-dən ləğv edilməsinə qərar verilib. Xatırladaq ki, sterilizasiyayönümlü daimi imkanlar aləti üzrə günlük limit əsasən banklararası bazarda əməliyyatları aktivləşdirmək məqsədilə tətbiq edilirdi. Son aylarda banklararası bazarda fəallığın və bankların likvidlik mövqeyinin əhəmiyyətli dəyişməsi sterilizasiyayönümlü daimi imkan aləti üzrə günlük limitin ləğvinə şərait yaratmışdır. Bununla da daimi imkan aləti öz klassik funksiyasını yerinə yetirməyə başlayacaq ki, bu da banklararası pul bazarında faizlərin Mərkəzi Bankın faiz dəhlizi daxilində formalaşmasına şərait yaratmalıdır.

Bu dəyişikliklər ortamüddətli dövrdə inflyasiya proseslərinin faizlər vasitəsilə daha effektiv idarə olunmasına xidmət edir.

# Azərbaycan Respublikasının İqtisadi Şurasının növbəti iclası keçirilib




Azərbaycan Respublikasının İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə iyulun 17-də şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda cari ilin birinci yarısında iqtisadi artım, makroiqtisadi sabitlik və maliyyə sabitliyi üzrə cari vəziyyət və siyasət prioritetləri, o cümlədən inflyasiya proseslərinin və onun faktorlarının təhlili, antiinflyasiya tədbirləri, valyuta bazarı, pul siyasətinin yeni əməliyyat çərçivəsi, bank və sığorta sektorunun mövcud vəziyyəti və inkişafı, habelə dövlət borcunun idarə edilməsi üzrə ortamüddətli çərçivə, Borclanma Strategiyası üzrə yeni hədəflər və dəyişikliklər, kapital bazarlarında investorların kompensasiyası mexanizminin yaradılmasına dair təkliflər və digər cari məsələlər geniş müzakirə olunub. İclasda maliyyə naziri Samir Şərifovun və Mərkəzi Bankın sədri Taleh Kazımovun məruzələri dinlənilib.

Yekunda müzakirə olunan məsələlər barədə şura üzvlərinin təklifləri də nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Bakıda ICCIA-nın 35-ci iclası çərçivəsində tərəflər arasında dörd memorandum imzalanıb



İyulun 17-də Bakıda İslam Ticarət Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasının (ICCIA) 35-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qonaqları salamlayaraq İslam Ticarət Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasının 35-ci iclasının keçirilməsi üçün ölkəmizin seçilməsinə görə təşəkkürünü bildirib.

M.Musayev bildirib ki bu gün Azərbaycan böyük beynəlxalq tədbirlərə evsahibliyi edir və ölkəmizin inkişafı, regionda və dünyada söz sahibinə çevrilməsi Prezident İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsidir. Azərbaycan 44 günlük Böyük Qarabağ Zəfəri ilə tarixi ədaləti bərpa etdi. Azərbaycanın yaratdığı yeni reallıqlar şəraitində iqtisadi inkişaf modelimizin də yeni reallıqlara uyğun olaraq təkmilləşdirilməsi və daha səmərəli şəkildə tənzimlənməsi məqsədilə 2030-cu ilədək müəyyən olunmuş sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər qəbul olunub. Eyni zamanda "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış Dövlət Proqramı"nın icrasına başlanılıb.

M.Musayev vurğulayıb ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 80-ə yaxın investisiya layihəsinin icrasına başlanılıb. Bunlar əsasən sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sektorlarını əhatə edir.

"Azərbaycan Sahibkarlar Konfederasiyası, üzv olduğu İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası ölkələrinin investorlarını da Qarabağda əməkdaşlığa dəvət edir", - deyə M.Musayev bildirib.

Azərbaycanda qida təhlükəsizliyi sahəsi barədə məlumat verən Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirib ki, Avropa İttifaqına yun, dəri, eləcə də balıq kürüləri ixracına icazələr əldə edilib.

Azərbaycanda həyata keçirilən iqtisadi layihələr barədə məlumat verən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, müsəlman ölkələrin potensialını nəzərə alaraq, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasına (ICCIA) üzv olan ölkələrlə əməkdaşlığın daha da genişləndirilməsinə ehtiyac var.

Kiçik Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov bildirib ki, bu günədək KOBİA-ya 1493 şirkətdən Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə investisiya yatırmaq üçün müraciət daxil olub. Bunlardan 490-ı 37 ölkədən olan xarici investorlardır: "Qarabağda biznes fəaliyyəti ilə məşğul olmaq üçün İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasına üzv dövlətlərin müraciətlərini əlaqələndirməyə hazırıq. Biz Qarabağda 3 əsas istiqamət üzrə fəaliyyətimizi qurmuşuq. Birincisi, yerli və xarici investorları investisiya imkanları barədə məlumatlandırmaq, ikincisi, yeni bizneslərin yaradılması üçün müraciətlərin qəbulu, üçüncüsü isə, biznes infrastrukturlarının yaradılmasına dəstək göstərməkdir.

Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov bildirib ki, Azərbaycan fəal biznes siyasəti ilə qlobal bazarda mövqeyini möhkəmləndirir. Nazir müavini qeyd edib ki, Azərbaycanda istehsal olunan məhsullar öz keyfiyyətinə görə rəqabətədavamlıdır və ölkəmiz qlobal bazarlarla ticarət əməkdaşlığını genişləndirmək istəyir: "Biz ölkələrlə ticarətin asanlaşdırılması üçün hüquqi bazanın formalaşdırılmasına üstünlük veririk".

AZPROMO rəhbəri Yusif Abdullayev ölkəmizin investisiya mühitinin xarici sərmayədarlar üçün yaratdığı imkanlar haqqında məlumat verib.

ICCIA-nın prezidenti Abdullah Saleh Kamel bildirib ki, islam ölkələrinin Azərbaycanda investisiya layihələri həyata keçirmək potensialı və istəyi böyükdür. Azərbaycanda mövcud imkanlar, əlverişli iqtisadi mühit investisiya layihələrinin həyata keçirilməsinə imkan verir: "Nəhayət ki, Azərbaycan illər sonra torpaqlarını işğaldan azad etdi. Həmin ərazilərdə də investisiya potensialını görürük və gələcəkdə bu imkanların dəyərləndirilməsi mümkündür".

ICCIA-nın 35-ci iclası çərçivəsində tərəflər arasında dörd memorandum imzalanıb:

1. İslam Palatasının Halal Xidməti (ICHS) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) arasında memorandum;

2. Mavritaniya Ticarət Palatası (CCIAM) və İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası (ICCIA) arasında memorandum;

3. KOBİA və İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası (ICCIA) arasında memorandum;

4. ICCIA, KOBİA, Beynəlxalq İslam Biznesi Assosiasiyası, Dövlət Turizm Agentliyi və "Caspian Event Organisers" MMC arasında memorandum.

Qeyd edək ki, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının birgə təşkilatçılığı ilə keçirilən tədbirlərdə Palataya üzv 20 dövlətdən 100-dək nümayəndə heyəti təmsil olunur.

Sonda tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən ICCIA-nın prezidenti Abdullah Saleh Kamel ASK-nin sədri Məmməd Musayevə mükafat təqdim edib.

Qeyd edək ki, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının üzv ölkələrinin ərazisi 31,8 milyon kvadratkilometrdən çoxdur. Dünyanın quru sahəsinin 6,2 faizi bu dövlətlərin payına düşür. Üzv ölkələrin əhalisi 1 milyard 900 milyon nəfərdən çoxdur, bu isə dünya əhalisinin 23,8 faizi deməkdir. İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasına üzv ölkələrin ümumi daxili məhsulunun həcmi 9 trilyon dollardan çoxdur. Bu isə qlobal ümumi daxili məhsulun 9 faizini təşkil edir. Azərbaycanın xarici ticarət dövriyyəsinin 18 faizi və ya 9,3 milyard ABŞ dolları İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının üzv ölkələrinin payına düşür.

# Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədrlərinin görüşü olub



Azərbaycan Respublikasının Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev ilə İran İslam Respublikasının yol və şəhərsalma naziri, İran ilə Azərbaycan arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyanın həmsədri Mehrdad Bəzirpaş arasında iyulun 17-də İranın Astara şəhərində görüş keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında regional və beynəlxalq nəqliyyat və kommunikasiya, o cümlədən enerji layihələri ilə bağlı məsələlər müzakirə olunub.

Tərəflər regionun tranzit potensialının inkişafı ilə bağlı səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq nəqliyyat kommunikasiyalarının inkişafına və şaxələndirilməsinə yönəlmiş layihələrin sürətləndirilməsini məqsədəuyğun sayıblar.

Bununla bağlı, xüsusilə 2022-ci il martın 11-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikası ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında" Anlaşma Memorandumun müddəalarının həyata keçirilməsi ilə bağlı tədbirlərin sürətləndirilməsi barədə razılaşıblar.

İki ölkə arasında nəqliyyat-kommunikasiyaların inkişafına yönəlmiş layihələrin həyata keçirilməsi ilə bağlı, Astara yük terminalının tikintisinin gələn ilin sonuna qədər başa çatması, Astaraçay üzərində avtomobil körpüsünün gömrük və sərhəd infrastrukturunun yaradılmasının tezliklə tamamlanmasının zəruriliyi bildirilib.

Görüşdə o cümlədən enerji və su ehtiyatların istifadəsi ilə bağlı əməkdaşlıq məsələləri və layihələrin həyata keçirilməsinin vəziyyəti nəzərdən keçirilib.

Bu xüsusda "Xudafərin", "Qız Qalası" və "Ordubad-Marazad" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi layihələrinin tezliklə başa çatdırılması ilə bağlı işlərin sürətləndirilməsinin vacibliyi qeyd edilib.

# İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasının rəhbərləri ilə görüş



Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov iyulun 17-də İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasının (ICCIA) rəhbərləri ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iyulun 17-18-də Bakıda keçirilən ICCIA Direktorlar Şurasının 35-ci iclası ilə bağlı ətraflı müzakirələr aparılıb və gələcəkdə ölkəmizin bütün islam dünyası üçün ticarət və investisiya baxımından diqqət mərkəzinə çevrilməsinin vacibliyi xüsusilə qeyd edilib.

Azərbaycanda aparılan iqtisadi, struktur və institusional islahatlar, həmçinin iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və rəqabət qabiliyyətliyinin artırılması məqsədilə görülən tədbirlərdən danışılıb.

# Nazir Ceyhun Bayramov Rusiyanın Azərbaycana yeni təyin olunmuş səfiri ilə görüşüb



İyulun 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiyanın ölkəmizə yeni təyin olunmuş səfiri Mixail Yevdokimov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə səfir Mixail Yevdokimov etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edərək ona ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzulayıb.

M.Yevdokimov Azərbaycanda fəaliyyəti dövründə iki ölkə arasında ənənəvi dostluq münasibətlərinin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Söhbət zamanı Azərbaycan və Rusiya arasında əlaqələrin ikitərəfli və çoxtərəfli müqavilələr çərçivəsində, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma şəraitində inkişafının vacibliyi vurğulanıb.

Həmçinin 44 günlük Vətən müharibəsindən sonra bölgədə vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməyə uyğun olaraq, iki ölkənin öz münasibətlərini, müstəqillik, dövlət suverenliyinə, ərazi bütövlüyünə qarşılıqlı hörmət prinsiplərinə sadiqlik əsasında qurduqları diqqətə çatdırılıb. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin Ermənistan tərəfinin mövqeyinə istinadən şərtləndirilməsinin qeyd edilən çərçivəyə uyğun olmadığı bildirilib.

Laçın sərhəd-buraxılış məntəqəsinin fəaliyyəti ilə əlaqədar bölgədə "gərgin humanitar vəziyyət" yarandığı barədə iddiaların reallığı təhrif etdiyi vurğulanıb. Uzun müddət ərzində Rusiyanın da tərəf olduğu üçtərəfli Bəyanata zidd olaraq Laçın yolundan istifadə etməklə aparılan qeyri-qanuni fəaliyyət, Ermənistandan Azərbaycan ərazisinə hərbi təchizat və minalar daşınması faktları xatırlanıb. Azərbaycan tərəfinin Laçın sərhəd-buraxılış məntəqəsi yaratmasının suveren hüququ olduğu, qanunazidd fəaliyyətlərin qarşısının alınması, habelə şəffaflığın təmin olunması məqsədi daşıdığı bildirilib. Buna baxmayaraq, Ermənistan tərəfinin məntəqəyə qarşı iyunun 15-də və iyulun əvvəlində təxribatlardan əl çəkmədiyi qeyd olunub. Azərbaycan tərəfi isə yenə də erməni sakinlərin bu məntəqədən keçidi üçün şərait yaradıb. Eyni zamanda Azərbaycanın erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadənin mümkün olduğu diqqətə çatdırılıb.

Rusiya Federasiyası Xarici İşlər Nazirliyi tərəfindən qeyd edilən erməni sakinlərin "hüquq və təhlükəsizliyi" məsələsinə gəldikdə, bu məsələnin Azərbaycanın milli qanunvericiliyi çərçivəsində həll olunacağı və bu məqsədlə erməni sakinlərlə dialoq təşəbbüsünün mövcudluğu qeyd edilib.

Tərəflər daha sonra qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələləri müzakirə ediblər.

# "Azərişıq" ASC Şamaxıda sahibkarlarla görüş keçirib



Prezident İlham Əliyevin tapşırıqlarına əsasən"Azərişıq" ASC yerlərdə sahibkarların rahat fəaliyyəti və yaranan problemlərin aradan qaldırılması üçün mütəmadi görüşlər keçirir.

"Azərişıq" ASC bölgələrdə fermer və sahibkarların fikirlərinə, təkliflərinə, tövsiyələrinə xüsusi diqqət yetirir. Belə görüşlərdən biri də Şamaxı Rayon İcra Hakimiyyətinin binasında təşkil olunub. Otuz nəfərə yaxın sahibkar və rayon ictimaiyyəti nümayəndəsinin iştirakı ilə keçirilən görüşdə "Azərişıq" ASC-nin "ASAN xidmət"lə iş departamentinin direktor müavini, Şimal-Qərb RETSİ-nin rəhbəri, eləcə də qurumun Mətbuat və İctimaiyyətlə əlaqələr idarəsinin rəisi iştirak edib.

Görüş zamanı qeyd olunub ki, dövlət başçısının tapşırıqları əsasında bu gün ölkənin ucqar rayonlarında belə ötən əsrin 50-60-cı illərindən qalma elektrik şəbəkələri yeniləri ilə əvəzlənir. Müxtəlif gücdə yarımstansiyalar tikilir, şəbəkələr tamamilə yenilənir, müasir transformatorlar quraşdırılır. Müasir şəbəkələrin qurulması enerji itkisinin qarşısının alınması ilə yanaşı, əhali və qeyri-əhali abonentlərin fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin olunmasına hesablanıb. Bu işlər həm də işğaldan azad olunan ərazilərimizdə tam gücü ilə aparılır.

Həmçinin qurumun elektron xidmətləri barədə sahibkarlarla maarifləndici söhbətlər aparılıb. Abonentlərin ofis və evlərindən çıxmadan onlayn qaydada quruma müraciət etmə imkanları ətraflı izah olunub. Fermerlərin müxtəlif məsələlərlə bağlı sualları dinlənilib, qaldırılan bəzi problemlər yerindəcə həll edilib.

"Azərişıq" ASC-nin nümayəndələrinin sahibkarlarla görüşləri digər regionlarda da mütəmadi şəkildə davam etdiriləcək.



# İlham Əliyevin şərtləri sülhün yeganə təminatıdır

**İyulun 15-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilmiş sayca altıncı görüşün yekunları bir daha göstərdi ki, tərəflər sülhə bir az da yaxınlaşıblar.**

Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi uzaqgörən siyasət artıq beynəlxalq aləmdə, o cümlədən də Ermənistan tərəfindən qəbul edilir.

Altıncı Brüssel görüşündən sonra mətbuata açıqlama verən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel bəyan etdi ki, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası ilə bağlı danışıqlarda aşkar irəliləyiş əldə ediblər. Görüşdə suverenlik, yurisdiksiya prinsiplərinə hörmətlə yanaşılaraq gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə ediblər: "Biz Ermənistan ilə Azərbaycan arasında danışıqların ən əhatəli və mürəkkəb mərhələlərindən birini keçirik. Mən liderləri sülh prosesinə güclü sadiqliklərinə görə təqdir etdim. Mən onları normallaşma yolunda qəti və dönməz irəliləyişi təmin etmək üçün daha cəsarətli addımlar atmağa çağırdım. Baxmayaraq ki, görüşümüz gərginliyin artması fonunda baş tutdu, mən siyasi müzakirələrdə və səylərdə mühüm irəliləyiş olduğunu qeyd etdim".

Gündəlikdə olan bütün məsələləri müzakirə edən Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla bir-birilərinin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqləyiblər. Hər iki lider delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə birmənalı sadiqliklərini bəyan edib.

Şarl Mişel hər iki sərhəd komissiyasının 12 iyul tarixli iclasını alqışlayaraq deyib ki, bu komissiyaların nizamnaməsi və sərhədlərin müəyyənləşdirilməsinin əsasları ilə bağlı müzakirələrdə irəliləyiş əldə edilib.

Şarl Mişelin sözlərinə görə, ən mühümü odur ki, liderlər komissiyaların işini intensivləşdirmək və sürətləndirmək barədə razılığa gəliblər.

Kommunikasiyalar məsələsinə gəlincə isə, Avropa İttifaqı Şurasının prezidenti vurğulayıb ki, bu məsələdə də tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail olublar.

Şarl Mişel hesab edir ki, dəmir yolu xəttinin tikintisinə dərhal başlanılmalıdır. Avropa İttifaqı buna maliyyə töhfəsi verməyə hazır olacaq. Bəzi detallar hələ də aydınlaşdırma tələb edir, lakin bu mövzuda indi mövqelər yaxınlaşır və variantlar fəal şəkildə araşdırılır.

Liderlər həmçinin Qarabağın erməni əhalisinin vəziyyətini, Laçın dəhlizi ətrafında durumu müzakirə ediblər. Şarl Mişel Laçın yolunda hərəkətin vacibliyini vurğulayaraq Azərbaycanın Ağdamdan humanitar yardımları təmin etmək istəyini də qeyd edib: "Mən hər iki variantı vacib hesab edirəm və əhalinin ehtiyaclarının təmin olunması üçün hər iki tərəfdən humanitar yardımların çatdırılmasını dəstəkləyirəm".

Hadisələrin inkişafı göstərir ki, sülh danışıqları ilə bağlı əsas amil Azərbaycan tərəfindən irəli sürülmüş 5 məlum prinsipin Hayastan tərəfindən qəbul edilməsidir. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinin təməl prinsipləridir. Ona görə də Azərbaycan əvvəlcədən bəyan edib ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər.

Görüşdə Qərbi Azərbaycan İcması və onların qayıdışı məsələsinin də müzakirə edilməsi növbəti uğur kimi dəyərləndirilməlidir. Çoxsaylı tarixi sənədlər, xəritələr, qədim tariximiz təsdiqləyir ki, Qərbi Azərbaycan bizim əzəli torpağımızdır. Ermənilər Qarabağda olduğu kimi, orada da tarixi-dini abidələrimizi yerləyeksan etməklə, xəritələri saxtalaşdırmaqla azərbaycanlıların tarixi irsini silməyə çalışıb, həmin ərazilərin ermənilərə məxsus olduğunu sübut etmək istəyib, lakin buna nail ola bilməyiblər.

Avropa İttifaqı və ABŞ-nin Azərbaycanın təşəbbüslərini dəstəkləmələri Ermənistanı çıxılmaz vəziyyətə salıb. Azərbaycan artıq Cənubi Qafqazda sülh və sabitliyin təminatçısı kimi qəbul edilir. Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Üçtərəfli Bəyanatın 4-cü bəndində göstərildiyi kimi, qeyri-qanuni erməni silahlı birləşmələri Azərbaycan ərazilərini tərk etməlidirlər. İstər Vaşinqton, istərsə də Brüssel formatında məhz həmin 4-cü bəndin təcili icra olunması məsələsi əsas müzakirə mövzusudur.

Görüşün nəticələri ilə bağlı bəyanatda mühüm məqamlardan biri də Zəngəzur dəhlizi ilə əlaqədar məsələ idi. Avropa İttifaqının bu məsələdə iqtisadi, siyasi marağını açıq şəkildə qeyd etməsi Ermənistanın bütün manevrlərinin uğursuzluqla nəticələndiyini düşünməyə əsas verir.

Belçika görüşü Azərbaycan Prezidentinin timsalında ölkəmizin növbəti diplomatik qələbəsi ilə yadda qaldı. Bir daha hamı tərəfindən qəbul olundu ki, bölgədə sülhün əldə olunmasının tək yolu Ermənistanın bütün təxribatçı mövqeyindən geri çəkilərək Azərbaycanın haqlı tələblərini qəbul etməsidir.

Bir daha bəlli oldu ki, qalib ölkənin qalib lideri İlham Əliyevin irəli sürdüyü 5 prinsipdən hər hansısa birini Ermənistan həyata keçirməkdən boyun qaçırarsa, sülh müqaviləsi imzalanmayacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın qətiyyətli mövqeyi

## Altıncı Brüssel görüşündə də rəsmi Bakının təklifləri müzakirə olundu

İyulun 15-də Brüsseldə Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti üçtərəfli görüş keçirildi.





Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh prosesi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qanunsuz hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Altıncı Brüssel danışıqlarının yekunlarına dair mətbuata açıqlama verən Şarl Mişel qeyd edib ki, bu danışıqlar mayın əvvəlindən Ermənistan və Azərbaycan liderləri, baş nazirlərin müavinləri və xarici işlər nazirləri arasında Brüsseldə, Kişineuda, Vaşinqtonda, Moskvada, həmçinin sərhəddə intensiv və məhsuldar keçirilən yüksəksəviyyəli görüşlər silsiləsinin davamı olub.

O, həmçinin Ermənistan və Azərbaycan liderlərinə yaydan sonra Brüsseldə növbəti görüşə dəvət etmək niyyətini bildirdiyini ifadə edib.

Altıncı Brüssel görüşü ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Erməni silahlı birləşmələrinin Qarabağda varlığı Azərbaycana antiterror əməliyyatı keçirməyə imkan verir

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında bildirib ki, son iki il yarımda Azərbaycanla Ermənistan arasında keçirilmiş müxtəlif formatlı görüşlərin hamısında olduğu kimi, sonuncu Brüssel danışığının gündəliyini də məhz Azərbaycanın regionda yaratdığı reallıq diktə edirdi.

Deputat qeyd edib ki, əks təqdirdə nə Ermənistan baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəqiq rəqəmlər göstərməklə növbəti dəfə təkrarlayası idi, nə də Şarl Mişel Qarabağ əhalisi ifadəsinə üstünlük verəsi idi, nə Xankəndidəki haydillilərə humanitar yüklərin Ağdam üzərindən daşına biləcəyini vurğulayası idi. Eləcə də kommunikasiyaların açılması məsələsində suverenlik, yurisdiksiya və qarşılıqlılıq məsələsi dilə gətiriləsi idi: "Əslində, nə qərbdəkilər, nə də Nikol Paşinyan əvvəlki rəhbərlərdən daha zəif və ya barışığa meyilli olduğu üçün belə addım atırlar. Bu qətiyyən belə deyil. Bütün bunlar ona görə baş verir ki, Azərbaycan Ordusunun mövqeləri harda olmalıdırsa, oradadır. Ermənistan baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəqiq rəqəmlər göstərmədən tanıdığını desə, bizim də Ermənistanın ərazi bütövlüyünə o cür yanaşmağa haqqımız var. Bunu reallaşdırmağa onlardan qat-qat artıq haqqımız çatır. Bunu qarşı tərəf çox gözəl anlayır. İndiyədək harada keçirilməsindən asılı olmayaraq, danışıqlarda qarşı tərəfə daha çox canları yananlar Ermənistanı qorumaq üçün onun rəhbərliyinə Azərbaycanın ərazi bütövlüyünü tanımalı olduğunu bildirirlər. Aİ Şurası prezidentinin Brüssel danışıqları ilə bağlı yekun açıqlamasında Ermənistanın ərazi bütövlüyünün dəqiq rəqəmlər göstərilməklə tanındığı vurğulandı. İlk növbədə söhbət ondan gedir ki, Ermənistan istəsə belə Azərbaycanın ərazi bütövlüyünü dəyişmək gücündə deyil. Amma onun Qarabağda silahlı birləşmələrinin varlığı, Azərbaycan torpaqlarında qanunlara qarşı çıxan fəaliyyəti dövlətimizə imkan verir ki, antiterror əməliyyatı keçirsin".

S.Alıyev vurğulayıb ki, ərazi bütövlüyünün tanınması Ermənistan üçün son dərəcə önəmlidir və bu unudulmamalıdır. Nikol Paşinyanın ardıcıl olaraq ərazi bütövlüyümüzü dəqiq rəqəmlərlə tanıdığını təkrarlaması Qarabağdakı silahlı birləşmələri torpaqlarımızdan çıxarmaq və oradakı haydillilərin Azərbaycana reinteqrasiyasına maneçilik törədilməməsi üçün əlimizdə ən yaxşı hüquqi bazadır. Ermənistan rəqəmlər çərçivəsində ərazilərimizi tanıdığını bildirirsə, onda Azərbaycanın haqqı var ki, istənilən zaman Qarabağda antiterror əməliyyatı keçirərək reinteqrasiya prosesini sürətləndirsin. Eləcə də Qazaxın 7 kəndini və Kərkini geri qaytarsın.

Kremldəkiləri ən çox qıcıqlandıran da bu məsələnin olduğunu deyən deputat Brüssel görüşü zamanı Rusiya XİN-in yaydığı bəyanatı xatırladıb. O vurğulayıb ki, Moskvadakılar Ermənistan baş nazirinin Azərbaycanın ərazi bütövlüyünü dəqiq rəqəmlərlə təkrarlaması və Qarabağın ölkəmizin ayrılmaz parçası olduğunu bildirməsi dövlətimizə Rusiya hərbi kontingentinin müvəqqəti nəzarəti altında olan ərazilərdə istənilən vaxt antiterror əməliyyatı aparmağa əsas verir və bunu onlar gözəl dərk edirlər. "Heç bir dövlət icazəsi olmadan torpaqlarında başqasının qanunsuz silahlı birləşmələrinin varlığı ilə barışmaz. Hazırda Qarabağın bəlli hissəsində məhz belə bir reallıq var. Brüssel danışıqları göstərdi ki, bu reallıq qısa zamanda aradan qaldırılmalıdır. Əks təqdirdə Ermənistanın ərazi bütövlüyü sual altında ola bilər", - deyə S.Alıyev əlavə edib.

Deputat qeyd edib ki, Brüssel görüşünün ən önəmli tərəfi Rusiyanın Qarabağdakı müvəqqəti hərbi kontingentinin varlığının artıq Moskva üçün heç bir önəm daşımadığını üzə çıxarmasıdır. Yəni Moksvadakılar məntiq çərçivəsində davransalar, heç 2025-ci ili də gözləməli deyillər, indi sülhməramlılarını oradan çıxartmalıdırlar. Çünki dərk edirlər ki, Qarabağdakı haydillililəri heç bir təhlükə gözləmir: "Brüssel danışıqları ortaya qoydu ki, Rusiyanın müvəqqəti hərbi kontingentinin Qarabağda varlığına heç bir ehtiyac yoxdur. Oradakı erməni qanunsuz silahlı birləşmələrinin ömrünə çox az qalıb. Əgər Ermənistan ordusunun tör-töküntülərini tezliklə Qarabağdan çəkməsə, Azərbaycanın istənilən an antiterror əməliyyatı keçirməyə haqqı və ixtiyarı var".

### Azərbaycan Brüssel görüşündə güclü siyasi mövqeyə malik olduğunu nümayiş etdirdi

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib ki, Azərbaycan Brüssel görüşündə növbəti dəfə öz mövqeyini qətiyyətlə təqdim edib. Bu görüşdən əvvəl Ermənistan tərəfindən növbəti təxribat cəhdləri müşahidə olunub. İstər Xankəndidə təşkil olunmuş aksiya, istərsə də Beynəlxalq Qızıl Xaç Komitəsinin qaçaqmalçılıq yolu ilə Xankəndiyə nə isə keçirməsi cəhdləri mahiyyət etibarilə ona hesablanmışdı ki, danışıqlar zamanı Azərbaycan ərazisində yaşayan ermənilərin xüsusi status məsələsi müzakirə predmetinə çevrilsin. "Bütün bunların heç biri baş tutmadı. Bu hər şeydən öncə Azərbaycanın kifayət qədər güclü mövqelərinə dəlalət etdi. Azərbaycan öz haqlı mövqelərini Brüssel müzakirələri zamanı bir daha təqdim etdi. Azərbaycanın uğurlarını növbəti dəfə də qeyd etmək mümkündür. Sonuncu ali səviyyəli görüş iyul ayının 1-də Kişineuda Avropa Siyasi Birliyinin ikinci sammiti çərçivəsində baş tutmuşdu. O sammitdən sonra Aİ Şurasının prezidenti Şarl Mişel görüşün nəticələri haqqında danışarkən qeyd etmişdi ki, Azərbaycan ərazisində yaşayan ermənilərin hüququ və təhlükəsizliyi məsələsi beynəlxalq ictimaiyyətlə müzakirə kontekstində həll olunmalıdır. Amma sonuncu Brüssel görüşü zamanı "beynəlxalq ictimaiyyətlə müzakirə" məsələsinə toxunulmadı", - deyə deputat əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycanın mövqeyi bəllidir, ərazimizdə yaşayan ermənilərin vəziyyəti daxili işimizdir, bunu kimləsə müzakirə etmək fikrində deyilik. Azərbaycanın bu mövqeyi Brüssel platformasında qalib gəldi. Eləcə də ilk dəfə qərbi azərbaycanlıların öz yurdlarına köçürülməsi məsələsi Brüssel görüşündə qaldırıldı. Bu da kifayət qədər subliminal mesaj effekti doğurdu. Azərbaycan Ermənistanın qeyri-qanuni silahlı birləşmələrinin ərazilərimizdən çıxarılması, BQXK tərəfindən qaçaqmalçılıq cəhdləri məsələlərini qaldırmaqla öz mövqelərini növbəti dəfə qətiyyətlə təsdiqlədi. Ümumiyyətlə, rəsmi Bakı bütün platformaları müzakirələr üçün məqbul hesab edir. Başlıca məqsədimiz odur ki, regionda sülh və təhlükəsizlik təmin olunsun. Brüssel müzakirələri zamanı Azərbaycan hərbi mövqeləri ilə yanaşı, güclü siyasi mövqeyə malik olduğunu da nümayiş etdirdi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistan ətraf mühitlə bağlı tərəfdar çıxdığı beynəlxalq konvensiyalara əməl etmir

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan tərəfindən törədilən beynəlxalq ekoloji cinayətlərlə bağlı müraciət yayıb.

Bu barədə AZƏRTAC-a ombudsman Aparatının Mətbuat xidmətindən məlumat verilib.

"Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazilərini 30 il müddətində işğal altında saxlayan Ermənistan sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri törətməklə yanaşı, regionun ekoloji təhlükəsizliyinə də ciddi zərər vurub və vurmaqda davam edir. Ermənistanın münbit torpaqlara, su hövzələrinə, atmosferə, meşə fonduna, flora və faunaya, mineral sərvətlərə və enerji mənbələrinə vurmuş olduğu zərər təkcə ölkəmizdə deyil, bütövlükdə regionda ekoloji tarazlığın pozulması ilə nəticələnib. Bütün bunlar Ermənistanın ekoloji cinayətlər törətməsini, ekologiya və ətraf mühitlə bağlı qoşulduğu beynəlxalq konvensiyalarla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsini bir daha sübut edir. Lakin ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların və beynəlxalq qeyri-hökumət təşkilatlarının Ermənistanın yaratmış olduğu qlobal təhlükə mənbəyi olan problemə susqunluq nümayiş etdirməsi bizdə dərin təəssüf hissi doğurur", - deyə müraciətdə bildirilir.

Qeyd edilir ki, ekoloji tarazlığın pozulması ilə nəticələnən cinayətlərin qarşısının alınması, cinayətkarların cəzalandırılması, bu sahədə mövcud beynəlxalq və milli qanunvericilik aktlarının tələblərinin hər bir dövlət tərəfindən icrasının təmin edilməsi qarşıda duran vacib məsələlərdən biridir.

Lakin mövcud ikili standartlar, beynəlxalq təşkilatların susqunluğu və cəzasızlıq mühitinin hökm sürməsi Ermənistanın qlobal və regional ekoloji problemlərə səbəb olan cinayətlərini davam etdirməsinə rəvac verir. Ermənistanın regional ekoloji problem yarada biləcək yeni təşəbbüslərindən biri də Azərbaycanla həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə - Arazdəyən kəndində 16 min 500 kvadratmetr sahədə illik istehsal gücü 180 min ton olan 70 milyon dollarlıq iri metallurgiya zavodunu inşa etmək istəyidir. Həmin ərazidə belə bir yeni zavodun tikilməsi və tullantıların Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına axıdılması nəinki bu çayın, eyni zamanda Arpaçayın çirklənməsinə gətirib çıxara bilər. Tikiləcək zavodun fəaliyyəti nəticəsində havaya buraxılan zəhərli qaz fauna və floraya ciddi təsir göstərəcək. Həmçinin metallurgiya zavodu fəaliyyətə başlayarsa, geniş zolaqda ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə səbəb olacaq. Bununla Ermənistan yenə beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiyasının (Espo Konvensiyası) müddəalarını da kobud surətdə pozur.

Diqqətə çatdırılır ki, bundan əlavə, istismar müddətinin bitməsinə baxmayaraq, hələ də Ermənistanda fəaliyyət göstərən Metsamor Atom-Elektrik Stansiyasının (AES) yalnız Azərbaycan və Ermənistanın özü üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün real təhlükə mənbəyi olduğunu xüsusilə qeyd etmək lazımdır.

"Azərbaycan ombudsmanı olaraq tərəfimdən hələ 2021-ci il yanvarın 27-də "Metsamor AES-in bütün bölgə üçün potensial təhlükəsi barədə" bəyanat qəbul edilib, beynəlxalq təşkilatlar Çernobıl və Fukuşimaya bənzər növbəti fəlakətin qarşısını almaq üçün stansiyanın təcili olaraq bağlanması, işinin təhlükəsiz şəkildə dayandırılması və radioaktiv tullantıların ciddi beynəlxalq nəzarət altına alınması üçün təcili tədbirlər görməyə çağırılıb. Lakin Ermənistan beynəlxalq təşkilatların Metsamor AES-in fəaliyyəti ilə bağlı narahatlıqlarına belə əhəmiyyət verməyib, bu stansiyanın fəaliyyətini 2026-cı ilə və ondan sonrakı müddətə qədər uzadıb", - deyə S.Əliyeva vurğulayıb.

Eyni zamanda Ermənistanın iri mədən müəssisələri - Qacaran Mis-Molibden Zavodunun və Qafan Filiz Emalı Kombinatının, o cümlədən Ley-Liçkivaz qızıl yataqlarının kimyəvi tərkibə malik sularının uzun illər ərzində transsərhəd çay olan Oxçuçaya axıdılması bölgədəki bütün su ehtiyatlarının keyfiyyətinə mənfi təsir göstərir ki, bu da insanların yaşamaq və sağlam ətraf mühitdə yaşamaq hüquqlarını birbaşa təhlükə qarşısında qoyur.

Ermənistanın su mənbələrini qərəzli şəkildə çirkləndirməsi faktlarından biri də əkinçilik üçün yararlı torpaqların suvarılmasını təmin edən Sərsəng su anbarıdır. Yeri gəlmişkən, Avropa Şurasının Parlament Assambleyasının qətnaməsində Sərsəng su anbarının texniki parametrlər baxımından uyğunsuzluğunun insanların həyat və sağlamlığı üçün potensial təhlükə yaratdığı, eyni zamanda ciddi fəlakətlərə yol açacağı vurğulanmış, Ermənistanın hərəkətləri qlobal ekoloji problemlərə gətirib çıxaran təcavüz aktı kimi qiymətləndirilib.

Araşdırmalar göstərir ki, işğaldan azad olunmuş torpaqlarda məhv edilmiş ekosistemin bərpası üçün uzun illər və külli miqdarda vəsait tələb olunur. Ölkəmiz üçün aktual məsələyə çevrilən, çoxsaylı insan itkilərinə və xəsarətlərə səbəb olan mövcud mina problemi yüz minlərlə keçmiş məcburi köçkünün doğma yurdlarına təhlükəsiz qayıdışını ləngitməklə yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı tikinti-quruculuq və bərpa işlərinə, eləcə də sülhə maneə yaradır.

"Minalanmış ərazilərin, o cümlədən kütləvi məzarlıqların dəqiq xəritələrinin ölkəmizə təhvil verilməsi ilə bağlı mütəmadi şəkildə beynəlxalq təşkilatlara və aidiyyəti qurumlara müraciətlər etsək də, əfsuslar olsun ki, Ermənistan hökuməti hələ də dəqiq mina xəritələrinin təhvil verilməsi istiqamətində hər hansı bir real addım atmır, müxtəlif bəhanələrlə bu işdən boyun qaçırır. Əksinə, beynəlxalq səviyyədə heç bir təzyiqə məruz qalmadığından daha da ruhlanaraq Azərbaycanın BMT tərəfindən tanınmış və hazırda işğaldan azad olunmuş ərazilərində təxribat-diversiya qrupları vasitəsilə minalama prosesini davam etdirir, öz əməlləri ilə insanların həyat və sağlamlığına, o cümlədən ətraf mühitə ciddi təhlükə yaradır. Bütün bunlar isə ilk növbədə Ermənistanın ətraf mühitlə bağlı tərəfdar çıxdığı beynəlxalq konvensiyalara və digər beynəlxalq müqavilələr üzrə öhdəliklərinə də məqsədli şəkildə əməl etmədiyini bir daha sübut edir.

Azərbaycan ombudsmanı olaraq ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatları, beynəlxalq qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını Ermənistanın törətmiş olduğu ekoloji cinayətlər nəticəsində yaranmış qlobal və regional ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi sahəsində mövcud beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi və gələcəkdə bu kimi əməllərin təkrarlanmaması məqsədilə birgə qətiyyətli addımlar atmağa dəvət edirik", - deyə müraciətdə vurğulanıb.

# *Azərbaycan XİN:* "Rusiya XİN-in bəyanatı anlaşılmazlıq və məyusluq doğurur"

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin üçtərəfli Bəyanatı və sülh prosesini şərh edən 2023-cü il 15 iyul tarixli bəyanatı anlaşılmazlıq və məyusluq doğurur.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Rusiya Federasiyası Xarici İşlər Nazirliyi tərəfindən verilmiş bəyanata dair şərhində yer alıb.

Bildirilir ki, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin bu bəyanatı Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməyə və Rusiya Federasiyası Prezidenti Vladimir Putin tərəfindən Qarabağ bölgəsi daxil olmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləyən çıxışları ilə uyğunsuzluq təşkil edir.

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin 30 ilə yaxın müddətdə ərazilərimizi işğal altında saxlayan Ermənistanın baş nazirinin Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıması faktı kontekstində şərh etməsi və şərtləndirməsi qəbuledilməzdir.

Xatırlatmaq istərdik ki, məhz Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla münasibətlərin qurulması üçün beş baza prinsiplərini, sülh müqaviləsi təklifini, eləcə də sərhədlərin delimitasiyası təşəbbüsünü irəli sürən tərəfdir və bu istiqamətlərdə bütün ilkin sənədlərin müəllifidir. Hazırda da Azərbaycan tərəfi sülh müqaviləsinin irəlilədilməsi istiqamətində əməli addımlar atır.

Ölkəmiz həmçinin Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatlara daim sadiqlik nümayiş etdirib.

Buna baxmayaraq, sözügedən üçtərəfli Bəyanat imzalanan ilk gündən etibarən Ermənistan tərəfi bəyanatın bir çox müddəalarını yerinə yetirməyib və Rusiya tərəfi öhdəlikləri çərçivəsində bəyanatın tam olaraq yerinə yetirilməsini təmin etməyib.

Uzun müddət ərzində Laçın yolundan istifadə etməklə aparılan qeyri-qanuni fəaliyyətə, Ermənistandan Azərbaycan ərazisinə hərbi təchizat və minalar daşınmasına, qanunsuz hərbi birləşmələrin rotasiyasına, üçüncü ölkə vətəndaşlarının icazəsiz əraziyə gətirilməsi kimi faktlara dair Azərbaycan tərəfindən dəfələrlə xəbərdarlıq edil-



məsinə baxmayaraq, bu fəaliyyətlərin qarşısının alınması üçün heç bir tədbir görülməyib.

Azərbaycan tərəfi ölkə ərazisində baş verən bu qanunazidd fəaliyyətlərin qarşısının alınması, şəffaflığın təmin olunması məqsədilə, Azərbaycan qanunvericiliyinə və beynəlxalq qaydalara uyğun olaraq yaradılmış Laçın sərhəd-buraxılış məntəqəsi təsis edib. Bu məntəqədən son bir neçə ay ərzində yüzlərlə erməni sakinlərin tənzimlənən və şəffaf şəkildə keçidi təmin olunub. Buna baxmayaraq, Ermənistan tərəfi yenə də Azərbaycan əleyhinə hərbi təxribatlarından əl çəkməyərək, iyunun 15-də məntəqəni atəşə tutub və iyul ayında Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) avtomobillərində qaçaqmalçılığa cəhd göstərib. Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfi BQXK vasitəsilə erməni sakinlərin keçidi üçün yenə də şərait yaradıb və Ağdam-Xankəndi yolu vasitəsilə erməni sakinlərin ehtiyaclarının qarşılanması imkanlarının mövcud olduğunu bildirib.

Bu kontekstdə Azərbaycanın suveren hüququ olan Laçın sərhəd-keçid məntəqəsi yaradılması məsələsinin siyasiləşdirilməsi cəhdləri və bölgədə, guya, gərgin humanitar vəziyyət yarandığı barədə iddialar səsləndirilməsinin heç bir əsasının olmadığı hər kəsə bəllidir.

Qeyd edilənlərə baxmayaraq, məhz Rusiya Federasiyasının tərəf olduğu 2020-ci il üçtərəfli Bəyanata zidd olaraq Azərbaycan ərazisində mövcud olan erməni silahlı qüvvələrinin qalıqlarının hələ də tam olaraq çıxarılması təmin edilməyib. Bunun əksinə, bölgədə Rusiya sülhməramlı kontingentinin müşahidəsi altında erməni silahlı qüvvələrinə dəstək həyata keçirilib.

Bununla yanaşı, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz kommunikasiyaya müxtəlif bəhanələrlə maneçilik törədildiyi məlumdur.

Azərbaycan bölgədə sülh və əmin-amanlığın təmin edilməsində maraqlıdır və bu istiqamətdə səylərini bundan sonra da davam etdirəcək.

# Qərbi Azərbaycan İcması Ermənistan hökuməti ilə danışıqlara hazır olduğunu bir daha bəyan edib

Qərbi Azərbaycan İcması Brüssel görüşü ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Əldə etdiyimiz məlumatlara görə, 2023-cü il iyulun 15-də Brüssel şəhərində keçirilmiş üçtərəfli görüşdə qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıdışı məsələsi müzakirə olunub. Bizim qayıdış məsələmizin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına dair danışıqların gündəliyinə gətirilməsi bu məsələnin sülh yolu ilə beynəlxalq hüquqa uyğun həlli istiqamətində tarixi bir inkişafdır. Bu, Qərbi Azərbaycan İcmasını və Ermənistandan zorla çıxarılmış hər bir azərbaycanlını qayıdış hüququnun reallaşması istiqamətində fəaliyyətə daha da ruhlandırır.

Qərbi Azərbaycan İcması bir daha bəyan edir ki, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtması insan haqlarının və ədalətin təntənəsi olmaqla bərabər, Ermənistan və Azərbaycan arasında davamlı sülhün bərqərar olması üçün zəruri bir şərtdir. Bu baxımdan biz Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışı hüququ və təhlükəsizliyi məsələsinin Brüssel sülh prosesi çərçivəsinə gətirilməsini ürəkdən alqışlayırıq.

Qərbi Azərbaycan İcması qayıdış məsələsinə dövlətlərarası münasibətlərin normallaşmasına xidmət edən Brüssel sülh prosesində baxılmasına paralel olaraq, bu məsələ üzrə Ermənistan hökuməti ilə birbaşa danışıqlara hazır olduğunu bir daha bəyan edir və Ermənistan hökumətinə bununla bağlı dialoq çağırışını yeniləyir".

# Rusiya taxıl sazişindən yenə çıxmaq istəyir

## Dünyanın nəzərləri yenidən Türkiyəyə dikilib

BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) son məlumatına görə, qlobal ərzaq qiymətləri indeksi ötən ay 122,3 bənd təşkil edib ki, bu da may ayı ilə müqayisədə 1,4, 2022-ci ilin martındakı göstəricidən 23,4 faiz aşağıdır.

İyun ayında qlobal taxılın qiymət indeksi isə may ayı ilə müqayisədə 2,1, illik ifadədə 23,9 faiz azalıb. Azalma bütün taxıl məhsullarında, o sırada ən çox yemlik taxılda 3,4 faiz olmaqla qeydə alınıb. Bununla bərabər, bitki yağlarının indeksi də may ayı ilə müqayisədə 2,4 faiz aşağı düşüb. Qeyd edək ki, Ukrayna ilə Rusiya dünya bazarına günəbaxan yağının ixracında önəmli yer tutur.

Xəbər verildiyi kimi, Rusiyanın taxıl məhsullarını ixrac edən xarici şirkətlər "Cargill", "Viterra", "Louis Dreytus" ölkəni tərk ediblər. Bu, qonşu ölkənin ixracında müəyyən problemlər yaradacaq. Çünki həmin şirkətlər Rusiya taxılının 16 faizini dünya bazarında satmaqla məşğul idilər.

Bu hadisə ilə bağlı Rusiya Taxıl İxracatçıları İttifaqının rəhbəri Eduard Zerin KİV nümayəndələrinə bildirmişdir ki, həmin şirkətlərin getməsi ölkənin taxıl satışında müəyyən çətinliklər yaradacaq. Belə ki, rəsmi statistikaya görə, "Viterra" 2022-2023-cü illər mövsüm ərzində 3,7 milyon, "Cargill" 2,3 milyon, "Louis Dreytuş" 1,2 milyon ton taxıl ixrac etmişlər. Ümumilikdə qonşu ölkədən Qara dəniz vasitəsi ilə taxıl ixracının 20, Qafqaz limanlarındakı ixracın 13 faizi bu şirkətlərə məxsus olmuşdur.

Xatırladaq ki, Qara dənizdə 1 avqust 2022-ci ildən bu il iyunun 20-dək 32 milyon 58 min 685 ton məhsul daşınıb. Həmin məhsulun 4 milyon tonu kasıb Afrika ölkələrinə daşınıb. Son 6 ayda daşınan buğdanın 12 faizi də bu qitənin payına düşüb. Ancaq bu dövr Ukraynadan ən çox taxıl alan ölkələr 7,7 milyon tonla Çin, 5,9 milyon tonla İspaniya, 3,6 milyon tonla Türkiyə olub.

Onu da qeyd edək ki, Türkiyənin Ukrayna və Rusiya ilə anlaşması sayəsində bu ilin may ayında taxıl sazişinin müddəti 2 ay müddətinə uzadılmışdır. Əldə olunan razılaşmanın müddəti cari il iyulun 20-də bitir.

Rusiya tərəfindən verilən rəsmi bəyanata görə, bu ölkə son müddət bitəndən sonra sazişdən çıxmağa qərar verib. Bu yenidən dünya bazarında həyəcan təbilinin çalınmasına səbəb olub, ilk növbədə birjalarda taxılın qiymətinin artmasına təsir edib. Belə olan halda gözlər yenə də Türkiyəyə dikilib. Belə ki, avqust ayında Rəcəb Tayyib Ərdoğanla Vladimir Putinin görüşü gözlənilir. Hamı problemin həmin görüşdən sonra həll olunacağına ümid edir.

Mütəxəssislərin fikrincə, Rusiya uzun müddət bu embarqonun tətbiq edilməsində maraqlı olmayacaq. Çünki ölkənin anbarlarında hələ də ötənilki məhsulun bir hissəsi satılmayaraq qalıb. Cari il yığılan məhsulun saxlanması üçün həmin taxıl ixrac olunmalıdır. O səbəbdən mütəxəssislərin yekdil fikri belədir ki, Rusiyanın "taxıl sazişi"ndən çıxmaq istəməsi iqtisadi yox, siyasi məsələdir.

Dünyada taxılla bağlı baş verən belə ciddi proseslər taxıl idxal edən ölkələri düşündürür. Unutmayaq ki, Azərbaycan da buğda idxal edən ölkələrdəndir. Ona görə də dünya taxıl bazarında baş verən hadisələrə belə həssas yanaşmağımız təsadüfi deyil.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Şarl Mişel Rusiyanın taxıl sazişindən çıxmasından təəssüflənir

Rusiyanın Qara dəniz taxıl təşəbbüsündən çıxması qlobal miqyasda ərzaq təhlükəsizliyini təhdid edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel sosial şəbəkədə bildirib.

Rusiya Federasiyasının taxıl sazişindən çıxmasından təəssüfünü ifadə edən Şarl Mişel yazıb: "Qara Dəniz Taxıl Təşəbbüsü bütün dünyada milyonlarla insana fayda verib. Mən Rusiyanın bugünkü bəyanatından təəssüflənirəm. Bu, ərzaq təhlükəsizliyini və bütün dünyada insanların taxıl və gübrə təchizatına çıxışını təhlükə altına alacaq".

O, BMT-nin Baş katibi Antonio Quterreşin sazişin uzadılması istiqamətində səylərini dəstəklədiyini bir daha vurğulayıb.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen də Rusiyanın qərarını pisləyərək deyib ki, Avropa İttifaqı Ukraynadan kənd təsərrüfatı



və ərzaq məhsullarının "həmrəylik dəhlizləri" vasitəsilə dünya bazarlarına ixracını asanlaşdırmaq üçün səylərini davam etdirəcək.

Rusiya Xarici İşlər Nazirliyinin bəyanatına görə, Moskva taxıl sazişinin bərpası məsələsini yalnız sazişin RF-yə aid hissəsinin reallaşmasında konkret nəticələr əldə ediləcəyi təqdirdə nəzərdən keçirə bilər.

Beləliklə, təxminən bir il davam edən saziş iyulun 18-də fəaliyyətini dayandırmalı olacaq.

# Rusiyanın iddiaları əsassızdır







**Rusiya Xarici İşlər Nazirliyinin iyulun 15-də üçtərəfli Bəyanatı və sülh prosesini şərh edən bəyanatında bölgədə, guya, gərgin humanitar vəziyyətin davam etdiyi qeyd olunub.**

Azərbaycan Xarici İşlər Nazirliyinin cavabında Rusiyanın iddialarının əsassız olduğu bildirilib, bölgədə Rusiya sülhməramlı kontingentinin müşahidəsi altında erməni silahlı qüvvələrinə dəstək verildiyi bir daha diqqətə çatdırılıb.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Sülhməramlıların fəaliyyəti sülhə xidmət etməlidir

Milli Məclisin deputatı Azər Badamov qeyd edib ki, Rusiya sülhməramlılarının Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında öz üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməməsi və separatçılara dəstək verməkdə davam etməsi regionda əməkdaşlığın və təhlükəsizliyin təminatına mane olur. Belə ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, Rusiya sülhməramlılarının Qarabağa yerləşdirilməsi ilə paralel olaraq, erməni hərbi birləşmələri ərazilərimizi tərk etməli idi. Lakin müharibənin başa çatmasından ötən üç ilə yaxın müddətdə Ermənistanın hərbi birləşmələri ərazilərimizdən nəinki çıxarılmayıb, əksinə, güclərini artırmaq istiqamətində onlara dəstək göstərilib.

"Təsadüfi deyil ki, ötən müddət ərzində Qarabağa qanunsuz yolla silah-sursat və hərbi təyinatlı mallar daşınıb, canlı qüvvənin rotasiya olunmasına şərait yaradılıb. O cümlədən Zəngəzur dəhlizinin açılması da Rusiyanın nəzarəti altında icra edilməli idi. Lakin Rusiya tərəfindən hələ də bu istiqamətdə hər hansı bir təşəbbüs irəli sürülməyib", - deyə A.Badamov bildirib.

Deputatın sözlərinə görə, Laçın yolunun humanitar məqsədlər üçün açıq olduğunu Beynəlxalq Ədalət Məhkəməsi təsdiq etdiyi halda, Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında "Bölgədə humanitar böhran getdikcə dərinləşir. Yerli əhali ərzaq, dərman, ilkin tələbat mallarının kəskin çatışmazlığını yaşayır, elektrik enerjisi və qaz təchizatından praktiki olaraq məhrumdur. Bu, Qarabağ erməniləri - bölgənin sadə sakinləri üçün ən dramatik nəticələrə səbəb ola bilər. Biz Azərbaycan rəhbərliyini Laçın dəhlizinin blokunun dərhal açılması, bu dəhlizlə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin maneəsiz hərəkətinin bərpası, eləcə də rayonun enerji təchizatı üçün təcili tədbirlər görməyə çağırırıq" kimi əsassız fikirlərin yer alması Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə əngəl törətmək cəhdindən başqa bir şey deyil.

Azər Badamov vurğulayıb ki, üçtərəfli Bəyanat imzalananda Rusiya öz öhdəliklərini təsdiqləyib və sənədə imzasını atıb: "Belə olan halda Rusiya öz imzasına hörmətlə yanaşmalı və sülhməramlılar bölgədə yerləşdirilmələrinin əsas məqsədinə xidmət etməlidirlər. Rusiya separatçıları dəstəkləyən bəyanatlar verməkdə davam edərsə, sülhməramlıların ərazilərimizdə qalıb-qalmamaları gündəmə gətirilə bilər. Sülhməramlılar 2025-ci ildə öz missiyasını başa çatdırdıqdan sonra ərazilərimizdən çıxmalıdırlar. Amma onlar bu gün xidmətlərini ədalətli şəkildə davam etdirsələr, regiona sülhün gəlişi sürətlənər və əməkdaşlıq mühiti də bir o qədər tez formalaşar".

### Laçın sərhəd-keçid məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, Laçın sərhəd-keçid məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur: "Ona görə də Rusiyanın bu mövzu ilə bağlı haqsız iddiaları qəbuledilməzdir. Rusiya sülhməramlılarının Qarabağda müvəqqəti yerləşdirilməsində məqsəd həmin ərazilərdəki qanunsuz erməni silahlı dəstələrinin çıxarılmasını təmin etmək idi. Lakin təəssüf ki, biz bunun əksini - sülhməramlılar tərəfindən qanunsuz silahlı birləşmələrə dəstək verildiyini müşahidə edirik".

Deputat deyib ki, əvvəlki dövrlərdə də sülhməramlıların müşayiəti ilə Azərbaycan ərazisinə silahların daşınmasının və ya buna cəhdlər edilməsinin şahidi olmuşuq: "Bu ondan xəbər verir ki, Qarabağda müvəqqəti yerləşdirilmiş kontingent öz mandatına uyğun fəaliyyət göstərmir. Həm Rusiya sülhməramlıları, həm də Ermənistan 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın şərtlərinə əməl etməli, öhdəliklərini yerinə yetirməlidirlər. Qarabağda erməni silahlı dəstələrinin dəstəklənməsi Azərbaycanın suveren qərarlarının əksinə çıxmaq, beynəlxalq hüquq çərçivəsində həyata keçirilən fəaliyyətlərə qərəzli münasibət sərgiləmək deməkdir".

### Moskvadan səslənən bəzi bəyanatlar ümumi niyyətlərimizlə üst-üstə düşmür

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Rusiya sülhməramlı kontingenti Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərinə 10 noyabr üçtərəfli Bəyanatına əsasən 5 il müddətinə yerləşdirilib. Bəyanatla Azərbaycan tərəfi üzərinə düşən bütün öhdəlikləri yerinə yetirib, kontingentin istər yerləşmə, istər logistik təminatı, istərsə də rahat fəaliyyəti üçün lazımi şərait yaradıb. "Lakin təəssüf doğuran haldır ki, Azərbaycanın beynəlxalq hüquqa və mehriban qonşuluq münasibətlərinə sədaqəti, Rusiya ilə aramızda müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə, eləcə də Rusiya Prezidenti Vladimir Putinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən çıxışları fonunda bəzən şimal qonşumuzun münasibətlərin ruhuna zidd olaraq arzuolunmaz reaksiya və davranışların şahidi oluruq. İlk növbədə 10 noyabr Bəyanatının 4-cü maddəsində açıq mətnlə ifadə olunur ki, "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir". Bu günə qədər Ermənistanın özünün də etiraf etdiyi kimi, sülhməramlıların müvəqqəti nəzarət zonasında həm Ermənistan silahlı qüvvələrinin 10 mindən artıq heyəti, həm də separatçıların qanunsuz hərbi birləşmələri mövcuddur. Yəni 10 noyabr Bəyanatının şərtləri, konkret olaraq 4-cü maddə ilə müəyyən olunmuş öhdəliklər kobud surətdə pozulmaqdadır", - deyə deputat bildirib.

Bəhruz Məhərrəmov vurğulayıb ki, bundan başqa, 22 fevral 2022-ci il tarixli "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin 9-cu maddəsi ilə Rusiya 10 noyabr 2020-ci il, 11 yanvar 2021-ci və 26 noyabr 2021-ci il tarixli bəyanatların müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək verəcəyi barədə öhdəlik götürüb. Lakin Rusiya tərəfi öhdəliklərini tam olaraq yerinə yetirmir, üstəlik, Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında da ifadə olunduğu kimi, sülhməramlıların müşahidəsi altında erməni silahlı qüvvələrinə dəstək verir.

Deputatın sözlərinə görə, bu dəstək yalnız sülhməramlı kontingentin komandanlığının mövcud vəziyyətə göz yummasında ehtiva olunmur: "Sülhməramlılar, həmçinin separatçılara, onların qanunsuz hərbi-cinayətkar dəstələrinə, o cümlədən Ermənistanın fərari ordusunun Qarabağdakı qalıqlarına mühəndis-istehkam işlərində, daşımalarda açıq formada kömək edirlər. Ekofəalların aksiyasına qədər isə sülhməramlılar separatçılar üçün açıq formada silah-sursat daşımalarını həyata keçirirdilər".

Bəhruz Məhərrəmov bildirib ki, Azərbaycan ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi ali niyyət kimi bəyan edib: "O cümlədən Rusiya ilə münasibətlər də bir çox aspektlərdə bizim üçün vacib əhəmiyyətə malikdir. Azərbaycan tərəfi 2020-ci ilin noyabrında regionda atəşin və bütün hərbi əməliyyatların tam dayandırılmasında Rusiya Federasiyasının vasitəçiliyini, o cümlədən Vladimir Putinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə verdiyi açıq dəstəyini yüksək qiymətləndirir. Unutmaq olmaz ki, Rusiya tərəfi də dəfələrlə Azərbaycan liderinin mövqeyini alqışlayıb, ölkəmizin qonşuluq-tərəfdaşlıq münasibətlərində etibarlı mövqeyinə görə şəxsən Rusiya Prezidenti dəfələrlə minnətdarlığını ifadə edib".

Deputat əlavə edib ki, lakin Moskvadan səslənən bəzi bəyanatlar, o cümlədən sülhməramlı kontingentin regionda sülhə təhdid yaradan fəaliyyəti ümumi niyyətlərimizlə üst-üstə düşmür. Hesab edirəm ki, bu qeyri-adekvat davranışlar səmərəli inkişaf edən əlaqələrimiz üçün əngələ çevrilir. Xüsusilə belə həssas geosiyasi məqamda buna qətiyyən imkan verməli olmaz.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## "Yüksəliş" müsabiqəsinin final mərhələsi keçirilib



**Prezident İlham Əliyevin sərəncamı ilə üçüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsi keçirilib.**

Final mərhələsində 109 iştirakçı mübarizə aparıb. Onların strateji düşünmək, nəticələrə yönəlmək, komandada işləmək, kommunikasiya və s. üzrə bacarıqları qiymətləndirilib. Qiymətləndirmədə dövlət qurumlarının rəhbərləri də iştirak ediblər.

Müsabiqə Azərbaycanda yüksək idarəçilik qabiliyyətinə malik, intellektual səviyyəli və perspektivli şəxslərin rəhbər vəzifələrə namizədliyinin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılması məqsədinə xidmət edir.

## 86 min pensiya, müavinət və təqaüd təyinatı e-qaydada aparılıb

**Bu ilin yanvar-iyun aylarında 86 min pensiya, müavinət və təqaüd təyinatı elektron infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib. Onlardan 18 mini pensiya, 68 mini müavinət və təqaüd təyinatıdır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ilin əvvəlindən həmin sosial ödənişlərin təyinatı elektronlaşdırılıb. Bununla da vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən onlara müvafiq təyinatlar e-qaydada aparılır.

Ötən dövrdə 586,5 min pensiya, müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

# Böyük qayıdışın köçü də böyük olur

**İşğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsi, bərpa edilərək yenidən qurulması bu gün Azərbaycan dövlətinin prioritet fəaliyyət sahəsidir. Təsadüfi deyil ki, Böyük qayıdış proqramı çərçivəsində ermənilərin viran qoyduqları yurd yerlərimiz sürətlə simasını dəyişir.**

Əslində, Böyük qayıdışın ilk qaranquşları Cocuq Mərcanlı kəndinin sakinləri olmuşlar. Yeddi il əvvəl - 2016-cı ildə Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyi azad ediləndən sonra Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı sərəncam imzalamışdır. Həmin sənədə əsasən, ilkin olaraq 50 mənzil və 100 şagirdlik məktəb binası tikilmiş, müvafiq infrastruktur yaradılmışdır. Bundan sonra 50 ailə kəndə köçürülmüşdür. Beləliklə, Cocuq Mərcanlıya qayıdış yurd həsrətinə son qoymağın qığılcımı, qayıdışın isə başlanğıcı olmuşdur. Bu qayıdışla el-oba həsrətini, yurd yerlərinin nisgilini inam, ümid dolu sevinc əvəzləmişdir. Təkcə qaçqın, köçkün insanların qaysaq bağlamış yarasının sağalması deyildi bu dönüş, həm də bütünlükdə Azərbaycan xalqının gözünə işığın gəlməsi idi.

Cocuq Mərcanlıdan 6 il sonra qayıdışın davamının növbəti ünvanı Həkəri çayının sol sahilində yerləşən Ağalı kəndi oldu. Dövlət başçısının şəxsi nəzarəti sayəsində ərsəyə gələn Ağalı "ağıllı kənd"ə çevrildi. Sakinlərin ixtiyarına yaşayış evləri ilə yanaşı, ən zəruri infrastruktur obyektləti, o sıradan məktəb və xəstəxana verildi, "Azərpoçt" MMC-nin, "ASAN xidmət", DOST, həmçinin KOBİA-nın şöbələri yaradıldı. Bu gün doğma kəndlərinə dönmüş ağalılılar həyatlarından razıdırlar. Onu da qeyd edək ki, 200 evdən ibarət olacaq Ağalı heç bir beynəlxalq qurumun, xarici dövlətin yardımı olmadan ərsəyə gəlir. Bu barədə Prezident İlham Əliyev ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə də demişdir: "Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycanın hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir". Artıq 420 nəfər - 86 ailə bu hesaba hər bir şəraiti olan evlə təmin edilib.



Çox keçmədən Tərtər rayonunun Talış kəndi də Böyük qayıdışın daha bir ünvanı oldu. Azərbaycan hökuməti Talışda da bərpa və quruculuq işlərini qısa müddətdə yerinə yetirdi. Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda müvəqqəti məskunlaşmış 20 ailə (90 nəfər) Novruz bayramı ərəfəsində öz dədə-baba yurdlarına köçdülər. Əvvəlcədən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi kənddə məskunlaşdırılacaq 20 ailə arasında şəffaflıq və ədalətlilik prinsipləri əsasında ev bölgüsü aparmaq üçün püşkatma keçirmişdi. Püşkatma nəticəsində ailələrin hər birinə veriləcək evin ünvanı müəyyənləşdirilmişdi. Təbii ki, 20 ev Talışın ilk dönüş ocaqlarıdır. Kənddə yaxın zamanda daha 178 ev tikilib istifadəyə veriləcək.

Ağalı və Talış kəndlərində Böyük qayıdış proqramı çərçivəsində yerli sakinlərin məşğulluğuna dəstək tədbirləri də həyata keçirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu kəndlərdə artıq 190 nəfər aktiv məşğulluq proqramları ilə əhatə olunub. Onlardan 19 nəfəri Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birgə təşkil olunan biznes təlimlərinə cəlb edilib və təlimlərdən sonra aktivlər alaraq kiçik təsərrüfatlarını yaradıblar. Bundan əlavə, 21 nəfər peşə hazırlığı kursu keçəndən sonra, 13-nəfər isə "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə işlə təmin olunub.

Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma və bərpa işlərinin sürəti imkan verir deyək ki, işğaldan azad olunan digər ərazilərə də tezliklə köç başlayacaq. Laçın rayonunun inzibati ərazisinə daxil olan Zabux və Sus kəndləri artıq öz sakinlərini qəbul etməyə hazırlaşır. Azərbaycan hökuməti qarşıdakı qısa zamanlarda həmin kəndlərin sakinlərinin öz dədə-baba torpaqlarına qovuşması üçün hər cür şərait yaratmağa çalışır. Nəzərdə tutulur ki, ilin sonuna kimi Zabux və Susda 296 ailə məskunlaşsın. Dövlət başçısının adıçəkilən müşavirədə söylədiyi fikirlər də yerinə düşür: "Biz bütün güclərimizi səfərbər etmişik. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Təbii ki, ilk növbədə infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik. Eyni zamanda yaşayış evlərinin inşası sürətlə gedir. Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq". Daha sonra isə Ağdamın 3 kəndinə, eləcə də Hadrut qəsəbəsinə və Tuğa köçün reallaşacağı planlaşdırılır.

Böyük qayıdışın köçü də böyük olur. Bu köç yurd yerlərinə qayıdışın təkcə 30 illik həsrətinə, nisgilinə son qoymur, həm də illərin mənəvi-psixoloji sarsıntısını yox edir, insanları mənəvi əzab-əziyyətdən qurtarır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Xarici dövlət borcu proqnozlaşdırılan ÜDM-in 10 faizi həcmində olub

**İyulun 1-nə xarici dövlət borcu 6576,9 milyon ABŞ dolları təşkil edib və cari il üzrə proqnozlaşdırılan ÜDM-in 10,0 faizi həcmində olub.**

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hesabat dövrünə daxili dövlət borcu 4970,3 milyon manat təşkil edib və cari il üzrə proqnozlaşdırılan ÜDM-in 4,5 faizi həcmində olub. Daxili dövlət borcunun əsas hissəsi dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi və dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi məqsədilə buraxılmış dövlət istiqrazlarından ibarətdir. Hesabat dövrünə dövriyyədə olan dövlət istiqrazlarının 28,5 faizi 1 illik, 54,0 faizi 2 və 3 illik,17,5 faizi isə 5 və 7 illik dövlət istiqrazlarının payına düşür.

İyulun 1-nə Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 16151,0 milyon manat və ya 2023-cü il üzrə proqnozlaşdırılan ÜDM-in 14,5 faizini təşkil edib.

Yanvar-iyun aylarında dövlət borcuna xidmət edilməsi ilə bağlı xərclər 430,8 milyon manat təşkil edib və ya dövlət büdcəsinin həmin dövr üzrə ümumi xərclərin 3,1 faizinə bərabər olub. Sözügedən xərclərin 352,7 milyon manatı xarici dövlət borcuna xidmət xərclərinin, 78,1 milyon manatı isə daxili dövlət borcuna xidmət xərclərinin payına düşür.

Bununla yanaşı, 2023-cü ilin birinci yarısında xarici dövlət borcu üzrə əsas borc ödənişlərinin 290,8 milyon manatı, daxili dövlət borcu üzrə vaxtı çatan əsas borc ödənişlərinin 433,3 milyon manatı, ümumilikdə 724,1 milyon manat məbləğində vəsait daxili maliyyə bazarında yerləşdirilmiş dövlət istiqrazları hesabına yenidən maliyyələşdirilib.

# Maliyyə imkanlarımız iqtisadi müstəqilliyimizin təminatıdır



**Prezident İlham Əliyev cari ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə iqtisadi sahədəki uğurlarımızı yüksək qiymətləndirmiş, bunu qlobal iqtisadiyyatda baş verən mənfi tendensiya fonunda ölkəmizdə aparılan iqtisadi islahatların məntiqi nəticəsi hesab etmişdir.**

Dövlət başçısı müşavirədə ölkənin iqtisadi və sosial istiqamətləri barədə danışarkən bildirmişdir ki, cari ilin 6 ayında da əsas istiqamət qeyri-neft sektoru hesabına ölkənin dayanıqlı inkişafını təmin etmək, paralel olaraq Qarabağın və Şərqi Zəngəzurun bərpasını sürətləndirmək olmuşdur.

Bununla belə, məlumdur ki, ölkə iqtisadiyyatında neft-qaz sektoru aparıcı rol oynayır. Dövlətin əldə etdiyi gəlirlərin mütləq əksəriyyəti bu sahənin fəaliyyətindən əldə olunur. Lakin iqtisadi sahədə aparılan islahatlar, əsasən, qeyri neft-qaz sektorunun inkişafının sürətlənməsinə hədəflənir. Elə bunun nəticəsidir ki, təkcə cari ilin 6 ayının yekunlarına görə, ölkə üzrə istehsal edilən qeyri-neft sənayesi məhsullarının həcmi 6,5 faiz artıb. Həm də bunun sayəsində, eləcə də icra edilən islahatlar, dövlət orqanlarında şəffaflığın təmin edilməsi, maliyyə nizam-intizamının yüksəldilməsi hesabına büdcə gəlirləri də artaraq rekord səviyyəyə - 36 milyard manata çatıb. Bu bizə imkan verir ki, işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərini daha da sürətləndirək və müdafiə qabiliyyətimizi gücləndirək. Prezident İlham Əliyev müşavirədə bu barədə demişdir: "Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın güclənməsinə. Yəni ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir".

Bu gün dünyada baş verən geopolitik vəziyyətin və qlobal iqtisadiyyatdakı qeyri-sabitliyin sosial sahədəki mənfi fəsadları ölkəmizdən də yan keçmir. Hazırkı inflyasiyanın 12 faiz həcmində olmasının da əsas səbəbi budur. Xüsusilə ölkəmizə idxal olunan ərzaq məhsullarının qiymətinin kəskin artması bu prosesə təsir edən başlıca amildir. Buna baxmayaraq, dövlət başçısı inflyasiyanın ikirəqəmli olmasını qəbuledilməz hal kimi dəyərləndirmişdir. Qeyd etmişdir ki, burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblər də var. Ona görə də belə vəziyyətin araşdırılması lazımdır.

İqtisadiyyatımız inkişaf etdikcə maliyyə imkanlarımız da artır. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan dünyada az ölkələrdəndir ki, iqtisadi cəhətdən tam müstəqildir. Bu da bizə siyasi sahədə müstəqil siyasət yürütməyə imkan verir. Maliyyə imkanlarımızın yüksək olması (Azərbaycanın hazırda valyuta ehtiyatı 60 milyard dollardan çoxdur) ölkəmizə həmçinin heç bir beynəlxalq maliyyə qurumunun qapısını döymədən işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərini aparmağa imkan verir. İmkan verir ki, bu ilin sonunacan nəzərdə tutulmuş investisiya proqramı əsasında Qarabağ və Şərqi Zəngəzurda təxminən 12 milyard manatlıq iş görək.

Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərdə icra edilən layihələrin və gələcəkdə görüləcək işlərin həcmi barədə demişdir: "Artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtmasını təmin etmişik. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## İşğaldan azad edilmiş əraziləri dirçəltmək üçün indiyədək sərf olunan vəsaitin həcmi 7 milyard dollara yaxındır

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 80-ə yaxın investisiya layihəsinin icrasına başlanılıb.**

Bunu Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasının 35-ci iclasında deyib.

O qeyd edib ki, işğaldan azad edilən əraziləri dirçəltmək üçün indiyə qədər sərf olunan vəsaitin həcmi 7 milyard dollara yaxındır.

"Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında müasir dövrün tələblərinə uyğun olaraq ən yeni texnologiyalar tətbiq edilməklə güclü infrastruktur qurulur. Paralel şəkildə erməni vandalları tərəfindən təhqir olunmuş dini abidələrimizin bərpası işləri də sürətlə davam etdirilir və məscidlərimizin, qəbiristanlıqların vəhşicəsinə dağıdılması ilə bağlı faktlar müvafiq beynəlxalq təşkilatlara təqdim edilib. Artıq fəaliyyətə başlayan investisiya layihələrinin sayı 80-ə yaxındır. Bunlar əsasən sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sektorlarını əhatə edir. Azərbaycanın xarici ticarət dövriyyəsinin 18 faizi və ya 9,3 milyard ABŞ dolları İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının üzv ölkələrinin payına düşür", - deyə M.Musayev bildirib.

## "Azərbaycanın ixrac potensialı 5-6 dəfə artıb"

**Bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasının Bakıda keçirilən 35-ci iclasında deyib.**

S.Məmmədov bildirib ki, investisiyaların ölkəyə axını üçün əlverişli mühit yaradılıb. Azərbaycanda sosial-iqtisadi inkişafla bağlı bir çox nailiyyətlərə imza atılacaq. "Trend"in məlumatına görə, nazir müavini qeyd edib ki, ölkədə sosial-iqtisadi siyasətin uğurla həyata keçirilməsi üçün kifayət qədər əlverişli mexanizmlər var.

"Son illər ərzində Azərbaycanın ixrac potensialı 5-6 dəfə artıb. Son 20 ildə özəl sektorun ÜDM-də payı 83 faiz təşkil edib. İqtisadi sahədə Azərbaycanın çox nailiyyətləri var. Biz də biznes mühitin genişləndirilməsi sahəsində səylərimizi əsirgəmirik", - deyə o vurğulayıb.

Nazir müavini qeyd edib ki, ötən illərdə İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasına üzv olan ölkələrlə münasibətlərimiz daha da möhkəmlənib: "Müsəlman ölkələrinin potensialını nəzərə alsaq, bu əməkdaşlığın daha da genişləndirilməsinə ehtiyac var. Ümumiyyətlə, müsəlman ölkələrinin Azərbaycana marağı artır", - deyə S.Məmmədov əlavə edib.

## AMB: "Azərbaycanın sığorta bazarı 2023-cü ildə böyüyəcək"

**"Azərbaycan Mərkəzi Bankı (AMB) bu il sığorta bazarının həcminin 1,2-1,3 milyard manata çatacağını gözləyir".**




Bunu AMB-nin baş direktoru Ziya Əliyev "Sığorta mübahisələrinin uğurlu həlli yolu" adlı konfransda deyib.

"2019-cu ildə Azərbaycanda 650 milyon manat sığorta ödənişi toplanılıb. 2023-cü ilə bu rəqəm 1,2-1,3 milyard manat olacaq ki, bu da son dörd il ərzində sığorta bazarının təqribən iki dəfə böyüyəcəyi deməkdir", - deyə Mərkəzi Bankdan bildiriblər.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycanda sığorta şirkətləri 970,822 milyon manatdan yuxarı sığorta ödənişi toplayıb, ödənişlər isə 433,202 milyon manat təşkil edib.

Reportaj

# Ağdamın ağ günləri...

**Maşınımızı saxlayıb ətrafa göz gəzdiririk. Şəhər nur içində idi. Bir anlığa mənə elə gəldi ki, ermənilərin uçurub dağıtdıqları, yandırıb külə döndərdikləri uçuq binalar da, dağ da, daş da gedən quruculuq işlərinə, tikilən binalara, qürurla dalğalanan zəfər bayrağımıza sanki baxıb qürurlanırdı: "Biz qururuq", "Biz yaradırıq", "Biz bu yurda yenidən həyat veririk", "Yamanlıq düşmənə qaldı..."**











Mənə elə gəlirdi ki, yüksəkqülləli kran hərəkət etdikcə Ağdam gözlərimiz qarşısında anbaan böyüyür, parlayır, ucalır... Ağdam tikildikcə, qurulduqca, böyüdükcə isə düşmən daha da kiçilir...

Bir güllə atılmadan Ağdamı diplomatik yolla düşməndən azad edən Müzəffər Ali Baş Komandan "Biz işğaldan azad olunmuş Qarabağı cənnətə çevirəcəyik", -demişdi. Budur, Ağdam anbaan cənnətə dönür, gözəlləşir, doğmalarını qarşılamağa hazırlaşır.

Ağdamın elə girəcəyində, "İmarət" deyilən ərazidəyik. Qarabağ xanlığını quran Pənah xanın, eləcə də İbrahim xanın, Mehdiqulu xanın, Xurşidbanu Natəvanın və xan ailəsinin digər nümayəndələrinin məqbərələri buradadır. Şəhər ərazisində 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilmiş Ağdam Cümə məscidinin bərpa işləri davam edir. Burada qızğın iş gedir. Məscid Heydər Əliyev Fondunun vəsaiti hesabına bərpa olunur. Bərpa prosesinə xarici ölkələrdən mütəxəssislər cəlb edilib. Bu dini məbəd tam olaraq yenidən əvvəlki orijinal vəziyyətinə qaytarılır. Öyrənirik ki, Ağdamda qədim Qiyaslı məscidində də bərpa işləri gedir. Eyni zamanda baş plana uyğun olaraq şəhərdə yeni bir məscidin də tikilməsi nəzərdə tutulub. "İmarət"in yaxınlığında 190 hektarlıq sahədə böyük sənaye parkı salınıb. Sənaye parkının yaxınlığında inşa edilən 6 yaşayış binasında tikinti işləri sürətlə davam etdirilir.

Xatırladaq ki, işğaldan əvəl Ağdam şəhəri 500 hektarlıq ərazidə yerləşirdi. O zaman burada 40 min nəfər əhali yaşayırdı. Şəhərin yeni baş planına uyğun olaraq, ərazisinin genişlənərək 1500 hektara çatdırılması, şəhərdə yüz min əhalinin yaşayacağı planlaşdırılıb. Ağdamın yaxınlığında yerləşən 8 kənd də baş plana uyğun olaraq şəhərə birləşdiriləcək.

Təməli ötən il Prezident İlham Əliyev tərəfindən qoyulan Ağdam 1 nömrəli məktəbin binasında da sürətli tikinti işlərinin getdiyinin şahidi olduq. 1000 yerlik məktəb binasında inşaat işləri başa çatmaq üzrədir. Üçmərtəbəli binanın artıq 3-cü mərtəbəsində işlər gedir. Onu da qeyd edək ki, şəhərin küçələrində yaşıllaşdırma işlərinə xüsusi diqqət yetirilir.

Bəri başdan deyək ki, şəhər sakinlərinin doğma yurdlarına dönəndə əsl möcüzə ilə üzləşəcəkləri şübhəsizdir. İçərisində gölün, kanalların olacağı, 27 hektar ərazini əhatə edəcək parkda abadlıq və yaşıllaşdırma işləri aparılır. Qədim şəhər mədəniyyətinin əsas elementlərindən sayılan təkərli tramvayların XXI əsrin şəhəri olacaq Ağdamda görünməsi də sakinlərin ürəyincə olacaq.

Baş plana əsasən, ərazidə insanların hər yerə piyada gedib-gəlmələri üçün iaşə obyektləri, uşaq bağçası, məktəb, sosial binalar hamısı bir-birinə yaxın inşa edilir.

Müasir Ağdam dünənin, bu günün, gələcəyin şəhəri olacaq. Ağdamın simvolu sayılan Fərhadın abidəsi, Çörək Muzeyi, Çay Evi, "İmarət" də tezliklə ikinci həyatlarına vəsiqə alacaq obyektlər sırasındadır. Əvvəllər stadion kimi istifadə olunan "İmarət"də yenə də Qarabağ atlarının cıdır yarışları keçiriləcək. Ağdamda "Qarabağ" komandası üçün dünya standartlarına uyğun stadionun inşası da nəzərdə tutulub.

Hazırda Ağdamda infrastrukturun bərpası işləri aparılır. 1964-cü ildə Xaçınçayın üzərində tikilmiş Xaçınçay Su Anbarında ikinövbəli təmir-bərpa işləri gedir. Şəhərə içməli suyun gətirilməsi, qaz xətlərinin çəkilişi layihəsi gerçəkləşmək üzrədir. Xaçınçay üzərində tikiləcək "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. 210 çarpayılıq Ağdam Mərkəzi Şəhər Xəstəxanasının inşası isə ağdamlılara tibbi xidmətin göstərilməsi üçün yeni imkanlar yaradacaq.

Ağdamın üç kilometrliyində yerləşən 418 hektar ərazidə layihələndirilən Xıdırlı kəndində 59 min 90 nəfərin, yəni 1500 ailənin məskunlaşması nəzərdə tutulub. Xıdırlıda məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, ilkin mərhələ üçün ayrılan 160 hektar torpaq sahəsində 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikintisi planlaşdırılıb. Kənddə mədəniyyət və əyləncə mərkəzləri, xidmət, kommersiya müəssisələrində, digər obyektlərdə, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələrində ümumilikdə 2595 nəfər işlə təmin olunacaq. Tikinti işlərinin 2024-cü il aprelin 10-da başa çatdırılması nəzərdə tutulur.

Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndi də yenidən qurulan yaşayış sahələri sırasında yer alıb. Kənddə 2 min 626 nəfər, yəni 639 ailənin məskunlaşması planlaşdırılıb. Birinci mərhələdə 1279 nəfər məcburi köçkün 290 müasir üslubda tikilmiş mənzillərə köçürüləcək. Doğma torpaqlarına qayıdan insanları bütün xidmət sahələrini əhatə edən komfort bir həyat gözləyir. Eyni zamanda yurduna qayıdanlardan 1182 nəfərin işlə təmin olunması da nəzərdə tutulub.

Yenidən qurulan Sarıcalı kəndində 425 ailənin 1720 nəfər üzvü yaşayacaq. Layihələndirilən ümumi ərazi 101,9 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 50,3 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə 895 nəfərin köçürülməsi üçün 211 fərdi evin tikilməsi planlaşdırılıb. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən Sarıcalı kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq, 774 nəfər işlə təmin olunacaq.

Biz Ağdamdan Bakıya dönəndə artıq gün batsa da, hava qaralmamışdı. Ay göyün üzünə kölgə kimi şəklini çəkməkdə idi. Yoldan keçən bir piyadadan havanın nə zaman qaraldığını soruşduqda, cavabı çox qısa oldu: "Buralardan qaranlıqlar çoxdan çəkilib. İndi Ağdamın ağ günləri başlayır".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Şuşanın mənəvi ruhu

## Heydər Əliyevin söz dünyasına ərməğanı olan "Vaqif Poeziya Günləri" Zəfər qalamızda təntənə ilə keçirilir





"Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir..."

2021-ci il avqustun 30-da mədəniyyət paytaxtımız Şuşada görkəmli şair Molla Pənah Vaqifin bərpa edilmiş məqbərəsi önündə qalib lider İlham Əliyev bu fikirləri qürurla səsləndirərək həm də Şuşanın şan-şöhrətinin özünə qaytarıldığının ismarışını vermişdi.

Azərbaycan xalqı olaraq indi həmin müstəsna tarixi məqamlara şahidlik edir, mədəniyyət paytaxtımızın çal-çağırlı, sazlı-sözlü, qonaq-qaralı günlərinə qovuşduğunun fəxarət hissini yaşayırıq.

Ulu Öndər Heydər Əliyevin müqəddəs söz dünyasına ərməğanı olan şöhrətli "Vaqif Poeziya Günləri" artıq üçüncü ildir ki, qala şəhərimizdə təntənəli şəkildə keçirilməyə başlanılıb.

Bu il 14-15 iyul tarixlərində Şuşanın ruhunun özünə qaytarılmasının daha bir təcəssümü olan "Vaqif Poeziya Günləri"ndə sənət aşiqləri, söz vurğunları yenidən mədəniyyət paytaxtımıza toplaşdılar.

### Ulu Öndərin qayğısı

Şuşanı Azərbaycanın gözü hesab edən Ulu Öndər Heydər Əliyev 1982-ci ildə qala şəhərimizə etdiyi tarixi səfəri zamanı "Vaqif Poeziya Günləri"nin keçirilməsi barədə göstəriş vermiş, bununla da hər il avqust ayında Şuşada şairlər, söz xiridarları, ümumiyyətlə, mədəniyyətə bağlı olan insanlar bu şeir bayramında böyük həvəslə iştirak etmişlər.

Hələ sovet dövründə Qarabağın, Şuşanın hərtərəfli inkişafı üçün əlindən gələni edən Ulu Öndər bu şəhərdə milli ruhun yüksəlməsi üçün mühüm işlər görmüş, erməni millətçilərinə qarşı qətiyyətli mübarizə aparmış, onların tarixi torpaqlarımızla bağlı məkrli niyyətlərinin həyata keçirilməsinə imkan verməmişdir.

Heydər Əliyev hər zaman bu qədim yurda zəngin tarixi abidə, eyni zamanda Azərbaycan xalqının qəhrəmanlıq qalası kimi baxırdı. Bilavasitə Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə 1970-ci illərdə Şuşanın inkişaf etdirilməsi üçün xüsusi qərarlar qəbul edilmiş və bu qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri, məscidləri bərpa edilmiş, yeni çoxmərtəbəli yaşayış binaları, mehmanxana, ayrı-ayrı inzibati binalar tikilmiş, Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi.

Heydər Əliyev klassik ədəbiyyatı dərindən bilən və hər zaman yüksək qiymətləndirən böyük şəxsiyyət idi. O, hələ 1967-ci ildə Şuşada olarkən görkəmli şair Vaqifin məzarını ziyarət etmək istəmiş, lakin onun məzarını tapa bilməmişdi. Buna görə də onun göstərişi ilə məzar tapılmış və Heydər Əliyev dağılmış məzarı ziyarət etmişdi.











Sonradan nitqlərinin birində bu məzarın Vaqifə layiq olmadığını vurğulayan Ulu Öndər qəti qərar vermişdi ki, böyük şairə onun şanına layiq məqbərə ucaldılsın.

### Vaqifin məzarı üstündə möhtəşəm abidə

1980-1981-ci illərdə Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üstündə möhtəşəm abidə-türbə ucaldılmışdı. Şuşa şəhərinin məşhur Cıdır düzünə yaxın bir ərazisində tikilən bu möhtəşəm abidənin təntənəli açılışı isə 1982-ci il yanvar ayının 14-də Şuşaya ailəsi, Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimləri ilə birlikdə səfər edən Ulu Öndərin iştirakı ilə olmuşdu...

1982-ci ildə Ümummilli Lider Heydər Əliyev Şuşaya səfəri zamanı Vaqifin məqbərəsi ilə yanaşı, Poeziya Evinin də açılışında iştirak etmişdi. Heydər Əliyev həmin vaxt "Vaqif Poeziya Günləri"nin davamlı keçirilməsi barədə göstəriş vermişdi.

Bundan sonra "Vaqif Poeziya Günləri" ənənəvi halda keçirilməyə başlanmışdı. Hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb Şuşada başa çatan "Vaqif Poeziya Günləri" Şuşanın işğalına qədər davam etmişdi.

İşğal dövründə Şuşadakı bütün tarixi, mədəni, dini abidələrimizi dağıdan erməni barbarları Molla Pənah Vaqifin məqbərəsini də dağıtmışdılar.

Şuşa azadlığına qovuşduqdan sonra mədəni ənənələrini də bərpa edib. Vaqifin məqbərəsi böyük şairin adına yaraşan şəkildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. "Vaqif Poeziya Günləri" də artıq təmtəraqla keçirilir.

Elə builki "Vaqif Poeziya Günləri"nin də öz gözəlliyi vardır. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən "Vaqif Poeziya Günləri"nə iyulun 13-də şairin doğma yurdu Qazaxda start verildi. Daha sonra estafet Şuşa şəhərinə ötürüldü və "Vaqif Poeziya Günləri" iyulun 14-15-də mədəniyyət paytaxtımızda təntənə ilə keçirildi.

İyulun 14-də Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi önündə baş tutan "Vaqif Poeziya Günləri"nin açılış mərasimində dövlət və hökumət nümayəndələri, respublikanın tanınmış elm və mədəniyyət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin üzvləri, gənc yazıçılar, şairlər iştirak etdilər. Vətənpərvərlik mövzusunda, eləcə də əziz Şuşaya həsr olunmuş şeirlərin səsləndirildiyi tədbir respublikanın tanınmış sənət adamlarının konsert proqramı ilə davam etdi.

Tədbir çərçivəsində Şuşanın sevilən məkanlarından birində - Natəvanın evi qarşısında "Dövri-səda" adlı konsert keçirildi.

Müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" unikal triptixi, ensiklopedik xatirə xalça kompozisiyası-müəllif əsərinin təqdimatı da "Vaqif Poeziya Günləri" çərçivəsində baş tutan əlamətdar hadisələrdən idi.

Mədəniyyət paytaxtımızda keçirilən sonuncu möhtəşəm tədbir isə "Vaqif dünyası" adlı poetik-musiqili tamaşa oldu.

Tamaşada Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Məhəmməd Füzuli, Əlişir Nəvai, Şah İsmayıl Xətai və türk dünyasının digər şairlərinin obrazları canlandırıldı.

### Əlamətdar tədbirlərin baş ünvanı

Azadlığının üzərindən ötən müddət ərzində Şuşanın özü ilə yanaşı, tarixi-mədəni ənənələri də bərpa edilib. Prezident İlham Əliyev tərəfindən Zəfər qalamız Azərbaycanın mədəniyyət paytaxtı elan edilib, illərdən sonra bu yurdda "Xarıbülbül" Musiqi Festivalı, "Vaqif Poeziya Günləri" təşkil olunub, ümumiyyətlə, tarixi şəhərimiz artıq musiqi, şeir bayramlarının, beynəlxalq tədbirlərin baş tutduğu möhtəşəm ünvana çevrilib.

2022-ci il ölkəmizdə başdan-başa "Şuşa ili" kimi qeyd edilib, bu il isə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" olaraq öz tarixini, mədəniyyətini, mənəvi zənginliyini dünyaya sərgiləyir.

Bütün bunlar Qarabağın incisinin milli ruhunun özünə qaytarıldığının, əziz Şuşanın dirçəldiyinin bariz göstəricisidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Şuşa" qalib oldu

**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və AFFA-nın birgə təşkilatçılığı ilə vəkillər arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş 4-cü Vəkil Futbol Liqası (VFL) keçirilmişdir.**

Vəkillər Kollegiyasından verilən məlumatda bildirilir ki, 9 komandanın ümumilikdə 90-dən artıq vəkilin iştirak etdiyi çempionata mayın 13-də start verilmişdir. İki aydan çox davam edən turnirin çempionluğunu həll edən, gərgin və maraqlı keçən son oyununda "Şuşa" komandası "Barrister" komandası üzərində 3-2 hesabı ilə qalib gələrək 4-cü VFL-in qalibi olmuşdur. 3-cü yeri isə "Lawyers United" komandası tutmuşdur.




Turnirin ən yaxşı oyunçusu və bombardiri adına "Şuşa" komandasının üzvü İsmayıl Babayev, turnirin ən yaxşı qapıçısı adına isə "İnter" komandasının qolkiperi Samir Mirzəyev layiq görülmüşlər.

Yekunda Vəkillər Kollegiyası sədrinin müavini, İdmançı Vəkillər Fondu İdarə Heyətinin sədri Pərviz Ələkbərov və turnirin təşkilatçıları fəxri yerləri tutmuş komandaları və oyunçuları qiymətli hədiyyələrlə təltif etmişlər.

*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Azərbaycan istədiyini əldə edəcək və məqsədinə nail olacaq"

## Brüssel görüşünü müzakirəyə çıxaran keçmiş hərbi xunta təmsilçiləri mövcud vəziyyətdən narahatdırlar

Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan ilə birgə sonuncu Brüssel görüşü İrəvanda böyük reaksiyaya səbəb olub. Artıq erməni ictimaiyyəti də ölkələrinin xilas formulunun Azərbaycanla münasibətləri normallaşdırmaqda gördüyünü davamlı şəkildə bildirir.

Ancaq revanşist qüvvələr bu prosesin baş tutmaması üçün məkrli niyyətlərini aşkar şəkildə nümayiş etdirirlər. Amma buna əngəl törətmək üçün nə daxili, nə də xarici dəstəyə malik olmadıqlarını da çox yaxşı başa düşürlər.

Keçmiş deputat Naira Zöhrabyan Brüssel görüşünün nəticələrini Qarabağ ermənilərinin rəsmi təsliminin təqdimatı adlandırıb. Humanitar yüklərin Ağdamdan daşınmasını isə ermənilər üçün fəlakət hesab edib. Şarl Mişelin görüşün nəticələrindən razı qalmasına toxunan Zöhrabyan Avropa İttifaqının Qarabağ məsələsində Azərbaycanın mövqeyini dəstəkləməsindən narahat olduğunu deyib və Hayastanda bu hadisəyə ciddi reaksiya verilməməsini pisləyib: "Çox təəssüf ki, Hayastanın siyasi həyatında baş verənlər heç bir üsyana, heç bir müqavimətə səbəb olmadı. Bu o deməkdir ki, biz hamımız Hayastanın kapitulyasiya prosesini, sadəcə, seyr edirik. Bəzi insanlar düşünürlər ki, Hayastanın Qarabağı de-yure Azərbaycanın bir hissəsi kimi tanıması oyundur. Amma yanılırlar. Azərbaycan istədiyini əldə edəcək və məqsədinə nail olacaq. Özü də heç bir müharibə aparmadan".

Daha sonra keçmiş deputat Rusiyanın son bəyanatına toxunub: "Ruslar Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımasından sonra vəziyyətin kökündən Azərbaycanın xeyrinə dəyişməsindən narahatdırlar. Bizim Rusiya Federasiyasına qarşı tələblər irəli sürməyə, sülhməramlıların qarşısında çadırlar qurmağa haqqımız yoxdur. Çünki Nikol Paşinyan Praqada Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımaqla rusların əl-qolunu bağladı. Amma buna baxmayaraq, Rusiya Qarabağ ermənilərinin taleyini üçüncü dövlətlərin üzərinə atmağın qəbuledilməzliyini bildirir".

Sabiq deputat, revanşist Tiqran Abramyan isə Avropa Şurasının prezidenti Şarl Mişelin Azərbaycan və Hayastan liderlərinin iştirakı ilə keçirdiyi üçtərəfli görüşdən sonra verdiyi bəyanatını şərh edib. O, Şarl Mişelin üçtərəfli görüşdə hərbi əsirlər və səhvən tərəfini dəyişən əsgərlər məsələsinin müzakirə olunması ilə bağlı sözlərinə də toxunub. Revanşist siyasətçi utanmadan Azərbaycan hərbçilərini Hayastan ərazisində dinc sakinləri qətlə yetirməkdə suçlayıb: "Beynəlxalq aktorların ədalətsiz və qəbuledilməz davranışı təkcə Qarabağ ermənilərinə deyil, həm də Hayastana münasibətdə özünü göstərir. Nə qədər ki, Paşinyan hakimiyyətdədir, bu belə də davam edəcək".

Keçmiş hərbi xunta nümayəndələrinin sərsəmləmələrinə xalq önəm vermir. Anlamağa başlayıblar ki, təhlükəsizliyə və iqtisadi inkişafa regionun lider ölkəsi olan Azərbaycandan başqa heç bir dövlət zəmanət verə bilməz. Eyni zamanda kommunikasiyaların bərpasının Azərbaycan və Hayastan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracağını da başa düşür.

Erməni siyasi ekspert Nikol Levonyan deyib ki, Brüssel görüşündə aparılan müzakirələr göstərir ki, kommunikasiyaların bərpası Hayastanın xilası olacaq. İnsanlarla söhbətləri, Brüsseldəki görüş ətrafındakı mövcud xəbərləri nəzərə alaraq deyə bilərik ki, iki ölkə arasında sülh bu anda regionun başlıca məsələsidir. Bu sülhün sayəsində iqtisadi tərəqqinin şahidi olacağıq.

Göründüyü kimi, Prezident İlham Əliyev seçim üçün Hayastanın siyasi rəhbərliyinə dəfələrlə şans verib. Erməni ictimaiyyəti artıq başa düşür ki, Azərbaycanın təklifləri ilə razılaşmasalar, İrəvanın inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 19.07.2023-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Londonda qastroturizm imkanları nümayiş etdirilib

Dövlət Turizm Agentliyinin dəstəyi ilə Azərbaycanın qastroturizm imkanları Londonda keçirilən "National Geographic Traveller" Kulinariya Festivalında təbliğ edilib.



Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə milli mətbəx irsi, Azərbaycana məxsus çay mədəniyyəti, milli şirniyyatlar təqdim olunub.

Festivalın ziyarətçiləri plov, qutab, kükü kimi milli kulinariya nümunələrini, o cümlədən Azərbaycan şərablarını dadmaq imkanı əldə ediblər.

Tədbir çərçivəsində "Çay mərasimi", "Düyü və zəfəran" master-klasları, Azərbaycan şərablarının dequstasiyası mərasimləri keçirilib.

Milli stendimizi Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanov da ziyarət edib.

# Yağış yağacağı gözlənilir

**Azərbaycanda iyulun 18-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 16-20° isti, gündüz 25-29° isti olacaq.

Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 23-24° isti, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 28-33° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 13-18° isti , bəzi yerlərdə 23-25°-dək isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 13-18° isti, bəzi yerlərdə 23° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, leysan xarakterli, intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 25-30° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə saatlarında yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-18°, gündüz 22-27° isti, dağlarda gecə 7-12°, gündüz 12-17° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-21°, gündüz 25-30° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-20°, gündüz 23-28° isti, dağlarda gecə 13-16°, gündüz 17-22° isti olacaq.

# Avropaya miqrant axını artır

## Aİ qeyri-qanuni miqrasiya ilə mübarizə üçün Tunisə 900 milyon avro ayırır

Avropa İttifaqı Tunisə qeyri-qanuni miqrasiya ilə mübarizə üçün 900 milyon avro maliyyə yardımı ayırır. Bu məbləğin 100 milyonu dənizdə miqrantların olduğu qayıqları aşkar edərək onları evlərinə göndərmək üçün nəzərdə tutulub.



Aralıq dənizini keçib Avropa İttifaqına çatmaq üçün həyati təhlükə yaradan cəhdlər edən miqrantların sayının artması fonunda Brüssel və Tunis qeyri-qanuni miqrasiya ilə mübarizədə birgə işləri gücləndirmək qərarına gəliblər. Müvafiq sənədin imzalandığını Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen, İtaliya və Niderlandın baş nazirləri Mark Rütte və Corca Meloni, Tunis Prezidenti Qeys Səid elan ediblər.

Bu müqaviləyə əsasən, Avropa İttifaqı çətin iqtisadi vəziyyətdə olan Şimali Afrika ölkəsinə 900 milyon avro məbləğində maliyyə yardımı göstərəcək. Bu sövdələşmə ilə bağlı danışıqlar avropalı siyasətçilərin iştirakı ilə təxminən bir ay əvvəl Tunisdə aparılıb.

Öz növbəsində Tunis qeyri-qanuni miqrasiyaya fəal şəkildə qarşı çıxmağı və qaçaqmalçıların onun sahillərindən Avropaya keçməyə cəhdlərini dayandırmağı öhdəsinə götürüb.

Sövdələşmə ilə bağlı Ursula fon der Lyayen deyib: "Biz yaxşı müqavilələr paketi bağlamışıq. İndi onları praktikada tətbiq etməliyik".

Qeys Səid də öz növbəsində razılaşmaları mümkün qədər tez həyata keçirəcəyinə söz verib. O, qeyri-qanuni miqrasiya ətrafında yaranmış vəziyyəti "qeyri-insani" adlandırıb və bu problemin birlikdə həll oluna biləcəyi fikrini bildirib.

Bu məqsədlər üçün Aİ fondlarından ayrılan vəsait indiyədək Tunisə Avropa büdcəsindən ayrılan orta illik vəsaitdən üç dəfə çoxdur. Qeyd olunur ki, bu il Aralıq dənizi vasitəsilə Aİ-yə gələn qeyri-qanuni miqrantların sayı kəskin artıb. Çoxları üçün Tunis tranzit nöqtəsidir.

Qeyri-leqal miqrasiya problemi İtaliya üçün xüsusilə aktualdır. İlin əvvəlindən ölkəyə dəniz yolu ilə gələn 75 min miqrant orada qeydiyyata alınıb. Ötən ilin eyni dövründə isə onların sayı 31,9 min nəfər olub.

İtaliyanın Baş naziri Corca Meloninin sözlərinə görə, Avropa İttifaqı Şimali Afrikanın digər ölkələri ilə də oxşar sazişlər bağlaya biləcək.

Həmçinin qeyd olunur ki, Tunisin pul alması üçün başqa bir qərar da qəbul edilməlidir. DPA Agentliyi xatırladır ki, Prezident Qeys Səid ölkədə lazımi islahatları həyata keçirmək üçün öz üzərinə öhdəlik götürmədiyindən Beynəlxalq Valyuta Fondunun vəd etdiyi 1,9 milyard dollarlıq krediti hələ də ala bilmir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin işlər müdiri Firudin Hacıyevə əzizi

**HƏBİBƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin işlər müdiri Firudin Hacıyevə əzizi

**HƏBİBƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov AzTv-nin qərb bölgəsi üzrə sabiq müxbiri Əhməd Qədir oğlu Məmmədova qardaşı

**HABİL QƏDİR OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5016**
**Sifariş 1783**

**Qiyməti 40 qəpik**